# Rusiya XİN-in binasına od düşüb

## Baş verən yanğın söndürülüb



**Rusiya Xarici İşlər Nazirliyinin binasında baş verən yanğın tamamilə söndürülüb, xəsarət alan yoxdur.**

APA-nın Moskva müxbirinin məlumatına görə, bu barədə Rusiya Fövqəladə Hallar Nazirliyindən bildirilib.

*Qeyd olunub ki, Smolenskaya-Sennaya meydanı, ev 30, bina 2-də saat 17.20-də 2 kvadratmetr sahədə yüngül yanğın baş verib, saat 17.43-də yanğın tamamilə söndürülüb.*



# Azərbaycanda donuz qripi aşkarlanmayıb

**Hazırda Azərbaycanda donuz qripi aşkar edilməyib.**

Bu barədə "Şərq"ə Səhiyyə Nazirliyindən bildirilib.

*Qeyd edək ki, son zamanlar dünyanın bir sıra ölkələrində, o cümlədən Azərbaycanla qonşu olan Rusiya və Ermənistanda donuz qripi geniş yayılıb.*


❒ № 2 (5763), 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 7 yanvar 2023-cü il (şənbə)




# Türkiyə Ermənistana hava yolunu açıb

## Yükdaşımalarla bağlı məhdudiyyət aradan qaldırılıb

**Türkiyə ilə Ermənistan arasında hava yolu ilə yükdaşımalar başlayır.**

Bu barədə "Habertürk" diplomatik mənbələrə istinadən məlumat yayıb. Bildirilib ki, iki ölkənin xüsusi nümayəndələri arasında aparılan görüşlərin nəticəsində 1 yanvar 2023-cü ildən etibarən Türkiyə ilə Ermənistan arasında birbaşa hava yolu ilə yükdaşımaların mümkün olduğu qeyd edilib.

Diplomatik mənbələr, bu məsələnin Türkiyə Ticarət Nazirliyi tərəfindən Türkiyə İxracatçılar Birliyinə elan olunduğunu vurğulayıb.

(səh.2)



## ABŞ Rusiyaya PUA təchizatına görə 6 iranlıya sanksiya tətbiq edib

**ABŞ rəsmiləri Rusiyaya pilotsuz təyyarələrin tədarükü ilə əlaqəli altı İran vətəndaşına qarşı sanksiya tətbiq edib. Bu barədə APA TASS-a istinadən xəbər verir.**

"Bu gün ABŞ Maliyyə Nazirliyinin Xarici Aktivlərə Nəzarət İdarəsi (OFAC, məhdudlaşdırıcı tədbirlərin həyata keçirilməsinə cavabdehdir) ABŞ tərəfindən sanksiyaya məruz qalan "Qods Aviation Industries" şirkətinin altı rəhbər işçisi və direktorlar şurasının üzvlərinə məhdudiyyətlər qoyub", - deyə ABŞ Maliyyə Nazirliyinin yaydığı press-relizdə deyilir.

Vaşinqtonun fikrincə, Tehran pilotsuz təyyarələri Ukraynadakı hərbi əməliyyatlar zamanı istifadə etmək üçün "Rusiyaya təhvil verib". Bundan əlavə, İranın ballistik raket proqramına məsul olan İranın Aerokosmik Sənaye Təşkilatının direktoruna qarşı da məhdudlaşdırıcı tədbirlər tətbiq edilib.

## Həkimlərin sertifikasiya imtahanları bərpa edilir



**Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin 26 dekabr 2022-ci il tarixindən texniki səbəblərdən təxirə salınmış sertifikasiya imtahanlarının 11 yanvar 2023-cü il tarixindən etibarən keçirilməsi bərpa edilir.**

Bu barədə "Şərq"ə Səhiyyə Nazirliyindən xəbər verilib.

Həmin tarixlərdə imtahanı təxirə salınmış şəxslərə yeni imtahan tarixləri və yenilənmiş imtahan buraxılış vərəqələri cari ilin yanvar ayının 9-da təkrar göndəriləcək.

11 yanvar 2023-cü il tarixində keçiriləcək sertifikasiya imtahanında iştirakı nəzərdə tutulan şəxslər imtahan buraxılış vərəqəsində qeyd olunmuş ünvan və saatda sertifikasiya imtahanında iştirak üçün dəvət olunurlar.

# Rusiya dünyayla üz-üzədir

## Ukrayna yeni silahlara yiyələnib, müharibə şiddətlənəcək



**Rusiya Prezidenti Vladimir Putin müdafiə naziri Sergey Şoyquya yanvarın 6-da saat 12:00-dan yanvarın 7-də saat 00:00-dək Ukraynanın bütün təmas xətti boyunca atəşkəs rejiminin tətbiq edilməsi barədə göstəriş verib.**

Putin bu addımı Moskvanın və bütün Rusiyanın Patriarxı Kirillin müraciətini nəzərə alaraq atıb. Ukrayna tərəfi isə Rusiyanın təmas xətti boyunca atəşkəs elan etməsinə mənfi münasibət bildirib. Ukrayna Prezidentinin Aparat rəhbərinin müşaviri Mixail Podolyak deyib ki, Rusiya işğal etdiyi əraziləri tərk etməlidir: "Yalnız bundan sonra müvəqqəti atəşkəs başlayacaq".

(səh.5)

# İmamoğlu Ərdoğanın əsas rəqibidir

## İqtidar komandası qarşıdan gələn seçkilər haqda ciddi düşünməlidir



**Türkiyədə prezident seçkisinin tarixi dəyişdiriləbilər.**

Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan rəhbərlik etdiyi Ədalət və İnkişaf Partiyasının (AKP) iclasında bildirib. Ərdoğan deyib ki, seçkinin vaxtının bir qədər irəli çəkilməsi ehtimalı var. Qeyd edək ki, "Cümhur ittifaqı"nın liderləri Rəcəb Tayyib Ərdoğanla MHP sədri Dövlət Baxçalı arasında keçirilən görüşdə seçki tarixinin 9 və ya 30 aprel, həmçinin 14 mayda keçirilməsinin mümkün ola biləcəyi müzakirə edilmişdi.

(səh.4)



## Naxçıvan sakinləri "ASAN xidmət"də şəxsiyyət vəsiqələrini dəyişə biləcək

**Bakıda və ölkənin digər şəhər və rayonlarında yaşayan Naxçıvan Muxtar Respublikası sakinlərinin "ASAN xidmət" mərkəzlərində şəxsiyyət vəsiqələrini dəyişdirməsi mümkün olacaq.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin bölmə rəisi, polis baş leytenantı Zeyni Hüseynov bildirib ki, Bakı şəhərində və Azərbaycan Respublikasının digər bölgələrində yaşayan, Naxçıvan Muxtar Respublikasında yaşayış yeri üzrə qeydiyyatda olan vətəndaşlar etibarlılıq müddəti bitmiş, itirilmiş, yararsız hala düşmüş şəxsiyyət vəsiqələrini dəyişdirilməsi, həmçinin köhnə nəsil şəxsiyyət vəsiqələrinin yeni nəsil şəxsiyyət vəsiqələri ilə əvəz edilməsi üçün "ASAN xidmət" mərkəzlərinə müraciət edə bilərlər.

## Baş Prokurorluq: Bakıda mənzildə meyiti tapılan 4 nəfər dəm qazından ölüb



**Bakının Nərimanov rayonu ərazisində yerləşən mənzillərin birində 4 nəfər şəxsin meyitinin aşkar olunması faktı ilə bağlı rayon prokurorluğunda araşdırma davam etdirilir.**

Baş Prokurorluğun Mətbuat xidmətindən bildirilib ki, araşdırma zamanı vəfat edən şəxslərin 1990-cı il təvəllüdlü Kənan Nəzərov, 1991-ci il təvəllüdlü Pərvin Səfərli, 2004-cü il təvəllüdlü Kənan Allahverdiyev və 2006-cı il təvəllüdlü Kənan Salayev olması müəyyən edilib.

*İlkin ehtimala görə, hadisə dəm qazından zəhərlənmə səbəbindən baş verib.*

## 4 nəfər vəfat edib

### Azərbaycanda 121 nəfər koronavirusa yoluxub

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 121 yeni yoluxma faktı qeydə alınıb, 59 nəfər müalicə olunaraq sağalıb.**




Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 4 nəfəri vəfat edib.

*Azərbaycanda indiyədək ümumilikdə 826 683 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 816 291 nəfər müalicə olunaraq sağalıb, 10 013 nəfər vəfat edib, aktiv xəstə sayı 379 nəfərdir.*



## "Hərbi-siyasi yol prioritet olaraq qalır"

Pənah Hüseyn: "Antiterror əməliyyatları zərurət kimi ortalığa çıxır"

(səh.4)



## "Naxçıvanda feodal üsul-idarəsinin izləri silinib"

Aygün Muradxanlı: "Düyün açılır, bir neçə saatdır Naxçıvandayıq və gördüklərimiz ümidvericidir"

(səh.2)




# Prezident "Bakı KOB evi"nin açılışında iştirak edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Bakı KOB evi"nin açılışında iştirak edib.**

**Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov paytaxtın Nərimanov rayonunda yerləşən "Bakı KOB evi" barədə dövlətimizin başçısına məlumat verdi.**

Bildirildi ki, sayca 3-cü olan "Bakı KOB evi"nin ümumi sahəsi 11 min 262 kvadratmetrdir. Üçmərtəbəli binanın ilk iki mərtəbəsi sahibkarlara xidmət göstərilməsi, üçüncü mərtəbə isə işçi heyət üçün nəzərdə tutulub. "Bakı KOB evi" gün ərzində beş min sahibkara xidmət göstərmək potensialına malikdir. Binada yaradılmış göriş, təlim, startap, mediasiya otaqları və konfrans zalı da sahibkarların xidmətində olacaq.

"Bakı KOB evi"ndə sahibkarlara 29 dövlət qurumu tərəfindən 150-dən çox, 20 özəl qurum tərəfindən isə 100-dən çox adda xidmətlər göstəriləcək. Sahibkarlar fəaliyyət üçün zəruri olan biznesin qeydiyyatı, lisenziya və icazələrin alınması, biznes planın hazırlanması, güzəştli maliyyə vəsaitlərinə çıxış, vergi, gömrük, kommunal xidmətlərə qoşulma, bank, sığorta və digər məsələlərlə bağlı "Bakı KOB evi"nə müraciət edə bilərlər. Bununla yanaşı, "Bakı KOB evi"ndə yaradılmış Beynəlxalq Ticarət, İnkişaf və Logistika Zonasında gömrük və idxal-ixrac əməliyyatları ilə bağlı geniş spektrli xidmətlər də təqdim ediləcək.

Diqqətə çatdırıldı ki, KOB evləri sahibkarlara dövlət və biznes xidmətlərinin mərkəzləşdirilmiş qaydada təqdim edildiyi vahid məkandır. Burada xidmətlər operativlik, şəffaflıq, nəzakətlilik və rahatlıq prinsipləri əsasında həyata keçirilir. Biznes xidmətlərinin bir məkanda toplanması, vaxta və xərclərə qənaət, operativlik KOB evlərinin əsas üstünlükləridir.

Hazırda fəaliyyətdə olan Xaçmaz və Yevlax KOB evlərində indiyədək sahibkarlara 170 mindən çox xidmət göstərilib ki, bu xidmətlərin 165 mindən çoxu dövlət-biznes (G2B), 9 minə yaxını isə biznes-biznes (B2B) xidmətləridir. Sahibkarların KOB evlərinin xidmətlərindən məmnunluq göstəricisi 98 faizdir.

Qeyd edək ki, Azərbaycanın davamlı iqtisadi inkişafının təmin edilməsində sahibkarlığın, xüsusilə kiçik və orta biznesin rolunun artırılması Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasətin prioritet istiqamətlərindəndir. Ölkəmizdə özəl sektorun inkişafı sahəsində həyata keçirilən sistemli tədbirlərin davamı olaraq dövlətimizin başçısının 2017-ci il 28 dekabr tarixli Fərmanı ilə İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) yaradılıb.

KOBİA tərəfindən sahibkarlara informasiya, məsləhət, təlim-tədris, maraqların müdafiəsi, bazarlara və maliyyə resurslarına çıxışın yaxşılaşdırılması, dövlət və özəl qurumlarla əlaqələndirmə və digər istiqamətlərdə dəstək və xidmətlər göstərilir. Bu dəstək və xidmətlər KOBİA-nın ölkənin müxtəlif şəhər və rayonlarını əhatə edən geniş infrastruktur şəbəkəsi - KOB dostları, KOB inkişaf mərkəzləri və KOB evləri vasitəsilə həyata keçirilir. Belə ki, KOB inkişaf mərkəzləri KOB-ların biznes biliklərini artırmaq üçün ödənişsiz olaraq informasiya, məsləhət, təlim və biznes planın hazırlanması xidmətlərini təklif edir. Ölkənin regionlarında KOB-ların maraqlarının müdafiəsi, lazımi dəstək və xidmətlərə çıxışı 38 şəhər və rayonda fəaliyyət göstərən "KOB dostu" şəbəkəsi vasitəsilə reallaşdırılır.

Bundan başqa, KOBİA tərəfindən mikro və kiçik sahibkarlıq subyektlərinə onları innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və gəlir vergisindən 3 il müddətinə azad edən "Startap" şəhadətnaməsi verilir, daxili bazar araşdırmasının aparılmasına, təhsil, elm, tədqiqat və dəstək layihələrinə maliyyə dəstəyi göstərilir, onların ödənişsiz olaraq sərgilərdə iştirakına və ticarət şəbəkələrinə çıxışına dəstək təmin olunur.

# "Heydər Əliyev İli" başlamış sayılır

## Ceyhun Məmmədov: "Ulu Öndərin həyatı, siyasi fəaliyyəti haqqında yeni kitabların qələmə alınması da məqsədəuyğundur"

**Prezident İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli Sərəncamı ilə 2023-cü il ölkəmizdə "Heydər Əliyev İli" elan edilib. Artıq yeni ilə keçməklə bərabər ölkəmizdə "Heydər Əliyev İli"də başlamış sayılır. 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan edilməsi vətəndaşlar, ictimaiyyət tərəfindən də yüksək qiymətləndirilib.**



Bu il görüləcək işlər, layihələr ictimaiyyət tərəfindən maraqla gözlənilir. Qeyd edək ki, ölkə Prezidentinin 28 noyabr 2022-ci il tarixli Sərəncamı ilə 18 müddəadan ibarət tədbirlər planı artıq təsdiqlənib. Tədbirlər Planına əsasən, yerli və beynəlxalq əhəmiyyətli forum, konfrans, simpozium, dəyirmi masa və seminarlar keçiriləcək. Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən veriliş, sənədli film və videoçarxlar nümayiş olunacaq. İdman yarışları və beynəlxalq turnirlər təşkil ediləcək. Ulu Öndərin irsinə həsr olunmuş əsərlər, kitablar və monoqrafiyalar nəşr olunacaq. Ali təhsildə yüksək akademik göstəriciləri olan tələbələr üçün "Heydər Əliyev təqaüdü", həmçinin "Heydər Əliyev-100" yubiley medalı təsis ediləcək. Şübhəsiz, "Heydər Əliyev İli"nin təsis edilməsi, Tədbirlər Planının təsdiqlənməsi dahi şəxsiyyətin dövlətimiz, xalqımız qarşısında xidmətlərinin çoxşaxəliliyini, miqyasının böyüklüyünü təsdiqləyir. Fəaliyyət planının təsdiqlənməsi ilə hər bir azərbaycanlı bu işlərə yüksək səviyyədə cəlb olunur. Ulu Öndərin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlayır, dövlətinə, xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin əyani təcəssümüdür. İctimaiyyət nümayəndələrinin sözlərinə görə, Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətçiliyində xüsusi iz buraxan şəxsiyyətdir. O, hələ sovet dönəmində rəhbərlik etdiyi gündən Azərbaycanın müstəqil olacağını, azərbaycanlıların öz istiqlaliyyətinə qovuşacağını bilirdi. Ümummilli Lider Heydər Əliyev istər Milli Təhlükəsizlik Xidmətinin rəhbəri olanda, istər Azərbaycan SSR-nin birinci katibi olanda, Moskvada Siyasi Büronun üzvü olanda bilirdi ki, xalqımız mütləq öz istiqlaliyyətinə qovuşacaq. Ötən 30 il Ulu Öndərin siyasətinin nə qədər müdrik və uzaqgörən olduğunu bir daha təsdiqlədi.

**Millət vəkili Ceyhun Məmmədov "Şərq"ə bildirib ki, "Heydər Əliyev İli" ilə bağlı təsdiqlənmiş Tədbirlər Planında hər şey öz əksini tapıb, məsələlərə geniş şəkildə toxunulub. Deputatın sözlərinə görə, Ulu Öndərin xatirəsinin əbədiləşdirilməsi üçün müxtəlif addımlar atıla bilər:** "Bunların çoxu Tədbirlər Planında qeyd olunub. Beynəlxalq konfransların, yarışların, sərgilərin, müsabiqələrin təşkilinin gündəlikdə yer alması mühümdür. "Heydər Əliyev İli" ilə bağlı həm tələbələr, həm də müəllimlər üçün təqaüdlərin müəyyənləşməsi məqsədəuyğun olardı. Eyni zamanda idman oyunları ilə bərabər, intellektual yarışların da təşkili müsbət məqamlardan olar. Bütün bu addımların kompleks şəkildə həyata keçirilməsi Ümummilli Liderin xatirəsinin daha da əbədiləşdirilməsinə öz töhfəsini verər. Ulu Öndərin həyatı, siyasi fəaliyyəti haqqında yeni kitabların qələmə alınması da məqsədəuyğundur".

**İsmayıl Qocayev**

# Türkiyə Ermənistana hava yolunu açıb

## Yükdaşımalarla bağlı məhdudiyyət aradan qaldırılıb

**Türkiyə ilə Ermənistan arasında hava yolu ilə yükdaşımalar başlayır.**

**Bu barədə "Habertürk" diplomatik mənbələrə istinadən məlumat yayıb.**

Bildirilib ki, iki ölkənin xüsusi nümayəndələri arasında aparılan görüşlərin nəticəsində 1 yanvar 2023-cü ildən etibarən Türkiyə ilə Ermənistan arasında birbaşa hava yolu ilə yükdaşımaların mümkün olduğu qeyd edilib.

Diplomatik mənbələr, bu məsələnin Türkiyə Ticarət Nazirliyi tərəfindən Türkiyə İxracatçılar Birliyinə elan olunduğunu vurğulayıb.

Türkiyə Ermənistanı hava yolu ilə birbaşa yükdaşımalar üçün məhdudiyyəti aradan qaldırması barədə məlumatlandırıb.

APA "Sputnik Armenia"ya istinadən xəbər verir ki, bu barədə Ermənistan XİN mətbuat xidmətinin rəhbəri Vaan Unanyan deyib.

O bu razılaşmanın icrasını iyulda iki ölkənin xüsusi nümayəndələrinin görüşündə əldə olunmuş razılaşmalardan biri olduğunu xatırladıb.

"Biz gözləyirik ki, üçüncü ölkə vətəndaşlarının iki ölkənin quru sərhədlərini



keçməklə bağlı razılaşma da yaxın zamanlarda icra olunacaq", o deyib.

# Vətəndaşların sosial müdafiəsi gücləndirilir

## Sərəncam 4-cü sosial islahatlar paketinin icra olunmasının təsdiqidir

**Prezident İlham Əliyevin imzaladığı "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Sərəncam ölkəmizdə son beş ildə artıq dördüncü sosial islahat paketinin icrasına başlanması, yeni ildə yeni sosial islahat mərhələsinə keçidi təmin edir.**



Sərəncamla minimum aylıq əməkhaqqı 1 yanvar 2023-cü ildən 15 faiz artırılaraq 300 manatdan 345 manata çatdırılıb. Ümumilikdə minimum əməkhaqqı və VTC üzrə işləyənlərin əməkhaqqı artımı 700 min nəfəri əhatə edəcək. Minimum əməkhaqqı bu il üçün müəyyən olunan yaşayış minimumunu (246 manat) da 40,2 faiz üstələyir. Yeni Sərəncama əsasən, minimum pensiya 280 manata çatdırılacaq, müavinət və təqaüdlər artırılacaq. Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşları da bir ay müddətində bu Sərəncama uyğunlaşdırılacaq və minimum əməkhaqqı artımı vahid tarif cədvəlinin (VTC) bütün pillələri üzrə əməkhaqlarında artımları təmin edəcək. Beləliklə, minimum aylıq pensiyanın məbləği də 16,7 faiz artırılaraq 240 manatdan 280 manata çatdırılacaq. Bu artım 100 minədək pensiyaçını əhatə edəcək. Qeyd edək ki, son 4 ildə sosial sahədə həyata keçirilən islahatların tərkib hissəsi kimi, minimum əməkhaqqı 2,7 dəfə artırılaraq 130 manatdan 345 manata, minimum pensiya 2,5 dəfə artırılaraq 110 manatdan 280 manata çatdırılıb. Ümumilikdə bu il sosial ödənişlərdə yeni artımlar üçün əlavə 750 milyon manat vəsait nəzərdə tutulub. Həmin artımlar 1,9 milyon vətəndaşı əhatə edəcək. Əlavə olaraq vurğulayaq ki, 2023-cü ilin dövlət büdcəsində əmək haqqı, o cümlədən məcburi dövlət sosial sığorta haqları üzrə ayırmalarla (22,0 faiz) bağlı xərclər bərabər olmaqla 8,6 faiz artımla proqnozlaşdırılıb. Növbəti ildə orta aylıq əməkhaqqının artımı 7,1 faiz səviyyəsində nəzərdə tutulub. "Dövlət sosial müdafiə fondunun 2023-cü il üçün büdcə layihəsinə Hesablama Palatasının rəyi"ndə qeyd olunub ki, cari ilin gözlənilən icrası ilə müqayisədə 2023-cü ildə büdcə təşkilatları (22 faiz) üzrə proqnozlaşdırılan sığorta haqqının artım tempi isə 5,2 faizdir. İctimaiyyət nümayəndələri hesab edirlər ki, insanların maddi təminatlarının yaxşılaşdırılması istiqamətində atılan addımlar ümumi bahalaşmaların və inflyasiyaların əhalinin rifahına mənfi təsirlərini azaldır. Ölkə başçısının 5 yanvar 2023-cü ildə imzaladığı əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında sərəncamı da bu baxımdan böyük əhəmiyyətə malikdir. Əhalinin sosial rifahının yaxşılaşmasına xidmət edən bu cür sərəncamların mütəmadi imzalanması Prezident İlham Əliyevin siyasətinin təməlində vətəndaşların rifahının dayandığının göstəricisidir.

**Millət vəkili, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü Cavid Osmanov "Şərq"ə bildirib ki, Prezident İlham Əliyevin imzaladığı Sərəncam yüzminlərlə insanı əhatə edir. Deputatın sözlərinə görə, bu Sərəncam vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində növbəti çox mühüm addımlardan biridir:** "Bu, bir daha onu göstərir ki, Azərbaycan dövlətinin yürütdüyü siyasətin mərkəzində vətəndaş amili dayanır. Ölkəmizin iqtisadi qüdrəti artdıqca insanların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm addımlar atılır. Prezident cənab İlham Əliyevin əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində imzaladığı Sərəncam ölkəmizdə son 5 ildə artıq 4-cü sosial islahatlar paketinin icra olunmasının təsdiqidir. Sərəncama uyğun olaraq, 2023-cü ilin yanvarın 1-dən minimum əməkhaqqı 15 faiz artırılaraq, 345 manata çatdırılıb. Bu qərar 700 min vətəndaşı əhatə edəcək. Həmçinin minimum əmək pensiyasının 280 manata çatdırılması, bundan başqa yaxın gələcəkdə digər müavinətlərin, təqaüdlərin, sosial ödənişlərin artırılması da nəzərdə tutulur".

Parlament üzvü vurğulayıb ki, dünyada baş verən böhranlar və iqtisadi geriləmələr fonunda Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü siyasət nəticəsində ölkəmizin iqtisadi qüdrəti artır: "Bununla paralel ilk növbədə vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində də ardıcıl addımlar atılır. Vətəndaşlarımız dövlət başçısının Sərəncamını xoş əhval-ruhiyyə ilə qarşıladılar. Ona görə də hər bir vətəndaşımız Prezidentə öz dərin təşəkkürünü, minnətdarlığını bildirir".

**İsmayıl Qocayev**

# "Naxçıvanda feodal üsul-idarəsinin izləri silinib"

## Aygün Muradxanlı: "Düyün açılır, bir neçə saatdır Naxçıvandayıq və gördüklərimiz ümidvericidir"



**"Naxçıvanda artıq başqa ab-hava var. İnsanlar daha rahatdır". Bu barədə "Şərq"ə açıqlamasında Naxçıvana səfər edən tanınmış jurnalist, Prime TV-nin baş redaktoru Aygün Muradxanlı deyib. Baş redaktor vurğulayıb ki, Naxçıvanda ən çox insan Ali Məclisin qarşısındadır:**

"İnsanlar bura şikayətə gəlirlər. Prezidentin səlahiyyətli nümayəndəsi Fuad Nəcəflinin, o cümlədən Naxçıvan daxili işlər naziri Süleyman Neymətovun qəbuluna düşməyə gəlirlər. Həddindən artıq şikayətlər var. Naxçıvanlılar indiyədək şikayət hüquqlarından istifadə edə bilmirdilər. İndi həm sərbəst şəkildə şikayətlərini dilə gətirir, həm də nəticə əldə edirlər. Bu, çox önəmlidir. Sadə vətəndaşlarla yanaşı, sahibkarlar, iş adamları da Ali Məclisə şikayətə gəlirlər. Çünki qanunsuzluqla üzləşən əsas təbəqə kiçik və orta sahibkarlıqla məşğul olan insanlar idi. Gördüyümüz, müşahidə etdiyimiz odur ki, Naxçıvan Ali Məclisində, daha doğrusu, səlahiyyətli nümayəndəlik yanında xüsusi bir qrup yaradılıb. Onlar vətəndaşların bütün şikayətlərini toplayır, sistemləşdirir və dərhal araşdırmalara başlayırlar. Müraciətlər çox diqqətlə yanaşılır və detallı araşdırılır. Gözləntilər o yöndədir ki, problemlər yaxın zamanda öz həllini tapacaq".

> "Sadə vətəndaşlarla yanaşı, sahibkarlar, iş adamları da Ali Məclisə şikayətə gəlirlər"

**A.Muradxanlı müsahibələr əsnasında Prezidentin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və daxili işlər naziri Süleyman Neymətovla təsadüf nəticəsində qısa görüşlərinin olduğunu bildirib:** "Bir neçə dəqiqə söhbət etmək imkanımız oldu. Görünən odur ki, Fuad müəllim prosesi çox gözəl idarə edir, problemlərə dərindən yanaşır. Çünki sistemli və akademik yanaşma olmadan problemləri kökündən çözmək qeyri-mümkündür. 2014-cü ildə Naxçıvanda olmuşam. İndi Naxçıvanı çox fərqli gördük. İnsanlar sərbəstdir, üzlərindəki qorxu-hürkü yoxdur. Ona görə də rahat danışırlar. Bəlkə də Bakıda, digər bölgələrdə yaşayan insanlarımız bunları sezmirdilər. Amma əvvəllər Naxçıvanda şikayət etmək birmənalı cəzalanmaq demək idi. Naxçıvanda şikayət edən hər bir vətəndaş ağır şəkildə cəzalandırılırdı, təzyiqlərlə, həbslərlə, işgəncələrlə üzləşirdi. Polis həmin şikayətçini qanunsuz həbs edir, oğurlayırdı. Dəhşətli hadisələr baş verirdi. Feodal üsul-idarəsinin izləri silinib. Naxçıvan bir düyün idi və artıq o düyün açılır. Bir neçə saatdır Naxçıvandayıq və gördüklərimiz ümidvericidir. Ölkənin gözü Naxçıvandadır. Ümid edirik ki, proseslər vətəndaşların xeyrinə olacaq".

*Qeyd edək ki, bir qrup jurnalist Naxçıvana səfər edib.*

**İsmayıl Qocayev**

## Güneyin səsi



# "Məni üzü Təbriz sarı basdırın"

## Süleyman Rüstəm parçalanmış ürəyin ədəbi simvoludur

**Cənubi Azərbaycan mövzusu bir çox şair və yazarlarımızın yaradıcılığında nisgilli mövzu kimi yer alıb. Süleyman Rüstəm poetik yaradıcılığında Güney Azərbaycan problemi mühüm yer tutub. Şair bir vətəndaş kimi doğma xalqının və Vətənin ikiyə parçalanmasına hər zaman etiraz səsini ucaldıb.**

Cənub həsrəti, Cənub nigarançılığı - Süleyman Rüstəm şeirinin və lirikasının canı və ruhudur. Bu hiss böyük şairin poeziyasına xas vətəndaşlığın ayrılmaz, üzvü keyfiyyətidir. Son şeirlərinin birində də yazdığı kimi:

**İçdiyim andımı pozan deyiləm,**
**Pozarsam, deməli ozan deyiləm.**
**Təbriz deyildimi, susan deyiləm**
**Torpaq altında da dinəcəyəm mən.**

XX əsrdə vahid şimallı-cənublu Azərbaycan ədəbiyyatı, "O tay bu tay", "O sahil bu sahil", "Bakılı, təbrizli", "Vətənin birliyi", "Bütöv millət" kimi anlamlarının elmdə, ədəbiyyatda yaşamasının, dillər əzbərinə çevrilərək beyinlərimizə, şüurumuza nüfuz etməsinin əsas səbəbkarlarından biri və birincisi məhz S.Rüstəm olub. Yaradıcılığında S.Rüstəm qədər cənub mövzusunda əsərlər silsiləsi yaradan ikinci bir ədib yoxdur desək, yanılmarıq.

II Dünya müharibəsi illərində İranda, Cənubi Azərbaycanda olan S.Rüstəm qəddar şah rejiminin ölkədə törətdiyi fəlakətlərin acı nəticələrini gözləri ilə görüb, imperializm əleyhinə mübarizənin canlı şahidi olub.

Süleyman Rüstəmin Cənub qoşmalarında lirik "mən"i xalq kədərinin və qəzəb hissinin tərcümanı səviyyəsinə yüksəlirdi. Qoşmaların poetik xüsusiyyətləri ən çox bu qoşmalardakı lirik qəhrəmanın xarakteri və əhvali-ruhiyyəsi ilə bağlı idi. O, öz qoşmalarında cənublu azərbaycanlının ümumiləşmiş obrazını təmsil edirdi. "Qardaşımın dərdi", "Getmə" kimi qoşmalarda cənublu qardaş özü danışır, könül aləmini açır, şəxsi taleyi vasitəsilə Cənubi Azərbaycan xalqının həsrət və ümidlərini pıçıldayırdı. Belə qoşmalarda Süleyman Rüstəm ənənəvi xalq şeiri formasını ümumxalq əhvali-ruhiyyəsinin, tarixi taleyinin ifadə vasitəsinə çevirə bilirdi. "Qardaşımın dərdi" qoşması formaca bir nəfərin şəxsi taleyinin lirik hekayətidir:

**Dərdim bir olsaydı, olmazdı dərdim,**
**Gör nə günə saldı zəmanə məni.**
**Ey hər gün saç yolub, ağlayan ana,**
**Nə üçün gətirdin cahana məni.**

Süleyman Rüstəm "Öz Gülüstanım" şeirində isə vətəninin özgə torpağından gözəl olduğunu söyləyir. Vətəni yolunda candan keçməyə hazır olan şairə özgə torpağı lazım deyil. Vətən həsrəti bu şeirin hər bəndində nəzərə çarpır.

**Qəm-qüssə çəkməzdim bəlkə də bunca,**
**Təbrizi görsəydim bir də doyunca.**
**Vüsal həsrətilə, Araz boyunca,**
**Yolları yollara yamayan canım!**

Filologiya üzrə fəlsəfə doktoru Əzizağa Nəcəfzadənin araşdırmasına görə, Süleyman Rüstəm bütün yaradıcılığı boyu əlində qələm Cənub cəbhəsində yaradıcılıq istedadını, bacarıq və şücaətini səfərbər edərək yenilməz bir əsgər kimi döyüşmüş sənətkardır. Məhz buna görə də şairin əsərlərini tədqiq edən alimlər, onun yaradıcılığının məziyyətlərindən bəhs edən tənqidçilər cənub şeirlərini Süleyman Rüstəm irsinin şah əsərləri adlandırmış və sadə dəmirçi oğlunun bu əsərlərində daha böyük olduğunu vurğulayıblar. Süleyman Rüstəm Cənub mövzusunda cənublulardan da yanıqlı yazmış, şimalda cənubu - Cənub həsrəti və Cənub problemini ədəbiyyat səhifələrində daha ciddi işıqlandırmış və yaşatmışdır. XX əsrdə də vahid - şimallı-cənublu Azərbaycan ədəbiyyatı anlamının elmdə yaşamasının əsas səbəbkarlarından biri məhz Süleyman Rüstəm olub.

**Kitabımı Arazdakı körpü üstdən assınlar,**
**Gənc nəsillər unutmasın bu şairin şərtini:**
**Tez köçərsəm bu dünyadan baş daşıma yazsınlar,**
**İki yerə parçalanmış ürəyimin dərdini.**

Süleyman Rüstəm kimi istedadlı sənətkarın o dönəmdə - Sovet rejiminin qəddar anlarında ən böyük nailiyyəti, sözsüz ki, dövlət siyasətini bacardığı qədər xalqımızın arzu və niyyətlərinə doğru yönəltmək qabiliyyəti olub. İstək və arzularını daha da xəlqiləşdirmək məqsədi ilə dramaturgiyaya müraciət edən, sənətinin ecazkar təsirinə inanan şair tarixi hadisələrin fonunda da Cənub həsrətini canlandırır, "Qaçaq Nəbi" əsərində baş qəhrəmanı cənuba gətirərək onun dili ilə deyir:

**Unutmaq olarmı bu haqqısayı,**
**Arazın o tayı, istər bu tayı.**
**Bir duyan, bir vuran saf bir ürəkdir,**
**Onun hər dərdinə dərman gərəkdir!**

S.Rüstəmin cənub mövzusunda yazdığı əsərlərinin şahı, mnifesti "Təbrizim" şeiridir. Şair burada Azərbaycanın qədim paytaxtlarından biri, inqilablar beşiyi, elm, mədəniyyət, sənətkarlıq mərkəzi olan, hüsnünə, gözəlliyinə baxmaqdan doymaq mümkün olmayan gözəl Təbrizə xitab edir. Təbrizə öz dərin, sonsuz, məhəbbətini bildirən şair ürək sözlərini, duyğularını ustalıqla dilə gətirir:

**Baxdıqca hüsnünə doymayır gözüm,**
**Təbrizim, Təbrizim, gözəl Təbrizim!**
**Sən çıxdın qarşıma duzla, çörəklə,**
**Bağından dərdiyin güllə, çiçəklə,**
**İkiyə bölünməz saf bir ürəklə,**
**Təbrizim, Təbrizim, aman, Təbrizim,**
**Yox olsun başından duman, Təbrizim!**

Qəlbi nisgildən sızlayan şair Təbrizlə görüşündən hədsiz dərəcədə sevinc duyduğunu, gözəlliyindən vəcdə gəldiyini, eyni zamanda Təbrizin başında qara dumanın olmasından rahatsızlığını ifadə edib.

Təbrizin şanlı qəhrəmanlıq tarixini xatırladan şair şeirdə vətənin birliyi, bölünməzliyi ideyasını, bütöv Azərbaycan ideyasını oxucuya daha dolğun şəkildə çatdırır. Şeirdə dilimizin zənginliyi, bir-birindən təsirli ifadə vasitələri böyük ustalıqla seçilmişdir:

**Ağlasan ağlaram, gülsən gülərəm,**
**Yaşasan yaşaram, ölsən ölərəm,**
**Varımı səninlə yarı bölərəm,**
**Gəl bir də üzündən öpüm, Təbrizim!**
**Başına gül-çiçək səpim, Təbrizim!**

Cənub mövzusunda yazmaqla, Azərbaycan poeziyasına yeni bir poetik çələng bəxş edən S.Rüstəm digər şeirlərində də cənub dərdini, nisgilini böyük ürək ağrısı ilə təsvir edirdi. Hər dəfə şeirlərində qəlbində çiçəklənən yaranı, o sahildə keçirdiyi xoş günlərini, orada gəzdiyi bağları, qoxladığı çiçəkləri, gəzərək söz qoşduğu elləri, mahnıları oxunduğu Ərk qalasını, qana dönmüş ürəyində qalmayacaq arzu-kamı, könüllərdə mütləq günəşin doğmasını, qəmli zindanların işıqlandıqlarını böyük ustalıqla, poetik ifadələrlə qələmə almışdır. Araz qırağına gəlib həsrətlə o tayı seyr edən şair ürək sözlərini misralara köçürərək təsəlli tapırdı:

**Ömür keçdi, hicran quşu can evimdən köçmədi,**
**Arazından iki qardaş yan-yana su içmədi.**

**Heç özüm də bilmədim ki, necə oldu qardaşım,**
**Ayrılıqdan, dərd əlindən ürəyimiz şişmədi!**
**Qan qardaşım, gül üzünə bir də baxım doyunca,**
**Bəlkə bir də bu yerlərdən mənim yolum düşmədi!**

Şairin böyük narahatlıq hissi ilə qarşıladığı problemlərdən biri də Cənubi Azərbaycanda yaşayan bəzi soydaşlarımızın öz ana dillərini bilməmələri və burada doğma dildə danışmamaları idi.

Şeirlərindən birində dil probleminə toxunan sənətkar "dəymə" nidası ilə Cənubi Azərbaycanda keçirilən farslaşdırma siyasətini tənqid etmiş, eyni zamanda Vətənin şimalındakı ruslaşdırmaya da qarşı çıxmışdır. Şair "Dəymə" şeirini bu alovlu misralarla başlayır:

**Mən sənin dilinə dəymirəm, cəllad,**
**Gəl sən də bu ana dilimə dəymə!**
**Sənin də bağın var, gülün var, çəkin,**
**Bağımda əkdiyim gülümə dəymə!**

Ayrılıq dərdini, qovuşmaq həsrətini illərlə qəlbində yaşadan qocaman şair ömrünün ahıl çağlarında da bu dərddən yazır, əsrlərlə xalqımızın başına gətirilən bəlaları şeirin dili ilə gənc nəslə danışır:

**Dinlə şairini, Təbrizli gözəl,**
**Yenə həsrətinlə alışır sinəm.**
**Tarixi uzundur bu ayrılığın,**
**Əzizdir qəlbimə, doğmadır bu qəm.**

Uzun illərin ayrılıq dərdini yaşadan qoca şair Süleyman Rüstəm cənublu qardaşının mənəvi sarsıntılarına, işgəncələrinə dözə bilmir və sazını sinəsinə basıb ürək ağrısını hayqıran dastan qəhrəmanları kimi belə ifadə edir: Aman, nə uzunmuş bu hicran yolu, Gedirəm, mənzilə çata bilmirəm.

Qəlbim məharətlə, ümidlə dolu, Bunsuz bir addım da ata bilmirəm. Ayrıla bilmirəm düşüncələrdən, Qardaşım göz açmır işgəncələrdən. Keçirəm qaranlıq dar küçələrdən, Gecələr sübhədək yata bilmirəm.

Cənub mövzusunu şimalda ən gözəl işıqlandırmağa müvəffəq olan qoca şairin ən ümdə, lakin reallaşmayan arzusu o taylı qələm dostu, şair Şəhriyarla görüşmək, onunla dərdləşmək idi. "Şair qardaşıma məktub" şeirində Süleyman Rüstəm bu görüşün baş tutmamasından gileylənir, yaxın yolun uzadılmasından şikayət edirsə də, ümidini gələcək nəslə bağlayır:

**Beşikdəki quş yuxulu körpələr,**
**Dodaqları süd qoxulu körpələr,**
**Babaları dağdan ulu körpələr**
**Bizi əvəz edəcəklər, Şəhriyar,**
**Yolumuzla gedəcəklər, Şəhriyar.**

Vaxtı ilə böyük proletar şairi adlandırılan Süleyman Rüstəm Cənub şeirlərində, öz ülvi arzularında, Şəhriyyar şeirinin ölməz misralarında yaşayıb, gələcəyə ümidlə baxır və şimallı-cənublu vahid vətən eşqi ilə mübariz bir əsgər kimi amalı uğrunda döyüşüb:

**Göz yaşımdan yaratmışam bu çayı,**
**Məni üzü Təbriz sarı basdırın,**
**Qibləm olsun Arazımın o tayı.**
**Ancaq yalnız bircə bunu etməyin,**
**Gözlərimin qapağını örtməyin.**

**Şəymən**

# Qarabağda yeni hərbi əməliyyatlar gözləniləndir

## Paşinyan danışıqlar masasındakı prosesləri sıfırlamaq istəyir



**Beynəlxalq ekspertlər bu il Azərbaycan və Ermənistan arasında hərbi ekslasiyanın başvermə riskini yüksək qiymətləndirir. Sülh müqaviləsi ətrafındakı fikir ayrılığı, 44 günlük müharibədən sonra bölgədə yaranmış situasiyanın dəyişdirilməsi cəhdləri bu gözləntiləri artırır. Mümkün eskalasiyanın hansı ssenarilər üzrə baş verə biləcəyi isə maraqlıdır.**

*Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə bildirib ki, Ermənistan sərhəd boyunca təxribatlara başlayır. Analitik deyib ki, Nikol Paşinyan hakimiyyəti sentyabr döyüşlərindən sonra Azərbaycan Ordusunun nəzarətinə keçən ərazilərin yenidən ələ keçirilməsi yolu ilə danışıqlar masasında əlini gücləndirmək istəyir:* "Hərçənd, yeni macərada hərbi baxımdan heç nə qazanmasa belə, eskalasiyanın yaşanması siyasi baxımdan İrəvana sərfəlidir. İrəvan üçtərəfli razılaşmalar üzrə götürdüyü öhdəliklərdən qaçmaq "bəhanəsi" əldə edir. Müharibədən sonra danışıqlar masasında gündəmdə olan məsələləri sıfırlayır. Ən pis halda prosesi uzadır, ən yaxşı halda yeni danışıqlar masası qurulur. İrəvan KTMT-dən dəstək tələbini aktuallaşdırır, buna paralel olaraq, anti-Rusiya siyasəti üçün əsaslar əldə edir. Rusiya qarşısında bölgəyə Qərb qüvvələrinin gətirilməsi kartından istifadə edir. Beləliklə, həm Qərb, həm Rusiya qarşısında qiymətini artırmaq manevrləri etmək imkanı qazanır".

**Ekspertin fikrincə, Azərbaycan tərəfi öhdəliklərini yerinə yetirməyən Ermənistanın təxribatlarına hərbi müstəvidə adekvat cavab verə bilər:** "Əsas gözlənti Zəngəzur dəhlizinin açılması istiqamətindədir. Qərbin "dəhliz məntiqinə" qarşı olması fonunda belə bir addımın beynəlxalq müstəvidə yarada biləcəyi reaksiyanı hesablamaq çətin olduğu üçün Bakı İrəvana qarşı fərqli istiqamətlərdə addım ata bilər. Bunun Qazaxın 7 kəndi və Kərki kəndi ilə bağlı olması ehtimalı var. Bakı bu kəndlərin sərhədin delimitasiyası prosesinə daxil edilməsinə nail olub. Lakin İrəvanın son açıqlamaları məsələnin danışıqlar masasında həlli imkanlarını azaldır. Azərbaycan-Ermənistan arasında mümkün eskalasiya ilə yanaşı, Bakının erməni qoşunların Qarabağdan çıxarılması öhdəliyinin icrası istiqamətində də praktik addım ata biləcəyi gözləntisi son günlər daha da artır. Lakin bu istiqamətdə mümkün addımlar artıq Azərbaycanın daxili məsələsidir".

**İsmayıl**

# Soyuqlar düşdü, qrip baş qaldırdı

## Ən yaxşısı ev şəraitində müalicədir



Xəstələrə bol maye, vitaminlə zənginləşdirilmiş qidalar verilməlidir

**Səhiyyə Nazirliyi bir neçə gün əvvəl kəskin respirator virus infeksiyası ilə bağlı əhaliyə xəbərdarlıq etmişdi.**

Bildirilirdi ki, bəzi şəxslərdə xəstəlik əlamətlərinin qısa müddətdən sonra yenidən qayıtması və xəstəliyin dalğavari gedişi onlarda immunitetin zəif olması, ikincili bakterial infeksiyanın qoşulması və ya başqa respirator virusa yeni yoluxma ilə əlaqəli ola bilər.

Qeyd edək ki, təhlükəli virus daşıyıcıları 40-a çatan yüksək hərarət, burun axması, boğaz, baş, qulaq, əzələ-sümük ağrıları və şiddətli öskürəkdən şikayətlənirlər. Xüsusən qulaqlarda uğultu, tutulma, baş ağrılarından əziyyət çəkdiklərini deyən xəstələr bir neçə gün sonra xəstəliyin yüngülləşdiyini, lakin qəflətən təkrar yüksək hərarətin başladığını qeyd edirlər. Hətta təhlükəli virusun COVID-19-u geridə qoyduğunu iddia edən vətəndaşlar xəstəliyin ağır keçməsi səbəbindən bunun qrip yox, hansısa başqa ağır virus və ya koronavirusun bir ştammı olduğunu düşünür.

Mütəxəssislər isə iddiaların əsassız olduğunu, son günlərdə yayılan xəstəliyin havaların soyuması ilə yayılan mövsümi, kəskin respirator virus infeksiyaları olduğunu qeyd edir.

"Azərbaycanda hazırda yayılan virusun qrip olduğu ehtimal edilir". Bunu Trend-in suallarını cavablayarkən Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) infeksion xəstəliklər üzrə işçi qrupunun rəhbəri Vasif Əliyev bildirib.

O qeyd edib ki, qış aylarında sadəcə koronavirus deyil, eyni zamanda artıq Avropada da geniş yayılmaqda olan qrip virusu da özünü göstərir. "Qripə yoluxan insanlarla COVID-19-a yoluxan insanların sayı eyni nisbətdə görülür. Təbii ki, Azərbaycanda da qızdırma, öskürək, ümumi halsızlıqla bağlı şikayətlər qış aylarında artmağa başlayır və sürətlə yayılır. Azərbaycanda hazırda yayılan virusun qrip olduğu ehtimal edilir. İstənilən halda koronovirusa da, qripə qarşı da profilaktik tədbirlər və müalicə eynidir. Sadəcə, sağlam qidalanaraq, mövsümə uyğun geyinərək, zamanında peyvənd olunaraq virusdan qoruna bilərik. Artıq yoluxan insanlar isə gərəksiz antibiotik və qrip əleyhinə dərmanlardan uzaq durmalıldır", - deyə V. Əliyev əlavə edib.

Qrip virus mənşəli olduğu üçün antibiotiklər bu xəstəliyin müalicəsində tam yararsızdır

**Pediatr Altay Abdullaoğlu isə bildirib ki, adətən, öskürmə və asqırma yolu ilə ötürülən belə xəstəliklər zamanı diqqətli olmaq lazımdır ki, ağırlaşma olmasın:** "Havaların qəfil dəyişməsi ilə adətən qrip virusuna yoluxma halları artır. Bu xəstəliyin əsas simptomları titrəmə, qızdırma, boğaz ağrısı, əzələ ağrıları, kəskin baş ağrısı, öskürmə, zəiflik və ümumi narahatlıqlardır. Qrip kəskin şəkildə olduqda sətəlcəm ilə nəticələnə bilər. Mütləq olaraq onu qeyd edək ki, qrip müalicəsində antibiotik istifadəsi doğru deyildir. Bu, bütün dünyada qəbul olunmuş tibbi bir göstərişdir. Qrip virus mənşəli xəstəlik olduğu üçün antibiotiklər bu xəstəliyin müalicəsində tam yararsızdır. Bu xəstəlik əsasən ev şəraitində müalicə olunur. Xəstəliyin yüngül, ilk mərhələlərində xəstəyə bol maye, vitaminlə zənginləşdirilmiş qidalar verilməlidir. Uşağın dincəlməsinə, rahatlığına fikir verilməlidir. Xəstə körpə olan otağın havası mütəmadi havalandırılmalıdır və xəstə ümumi nəzarətdə saxlanılmalıdır. Ağırlaşma hallarında mütləq bir şəkildə həkimə müraciət etmək, məsləhətləşdikdən sonra uyğun müalicələrə başlamaq lazımdır".

**Şəymən**

# Hədəf yalnız yataqların monitorinqi deyil

## Laçın yolunda aksiyanın digər məqsədi Ermənistanla Qarabağı birləşdirən yolu nəzarətə götürməkdir



**Laçın yolundakı etiraz aksiyası birinci ayına yaxınlaşır. Ermənistan hakimiyyəti, erməni separatçıları və dünyadakı erməni lobbisi var gücləri ilə müxtəlif dövlət və beynəlxalq təşkilatların Azərbaycana təzyiq etməsinə çalışsalar da, niyyətləri baş tutmadı.**

Onların "yol bağlıdır", "xəstələrimiz dərmansız qalıb", "Qarabağ erməniləri acdır" kimi dezinformasiyaları nəticə vermədi. Fransanın siyasi dairələrinin Azərbaycan əleyhinə çalışmaları da nəticəsiz qaldı. Aksiyanın əsas hədəfi işğal altındakı qızıl və mis yataqlarında monitorinqə imkan yaradılmasıdır. Lakin hələlik buna nail olunmayıb. Belə olan halda "aksiya hələ nə qədər davam edəcək" sualı da aktuallaşmaqdadır.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bildirib ki, bu sualın bir neçə cavabı var. Analitikin fikrincə, birinci variant odur ki, Qarabağdakı erməni separatçıları məcburiyyət qarşısında qızıl və mis yataqlarında azərbaycanlı məmurların monitorinqinə imkan yaradırlar:** "Bu halda azərbaycanlı məmurlar yataqlarda monitorinq aparır və yoldakı etiraz dayandırılır. Ancaq monitorinqlə məsələ bitməyəcək, dövlətin yataqları və əldə edilən gəlirin nəzarət altına alınması mövzusu aktuallaşacaq. İkinci variant isə odur ki, Qarabağdakı erməni separatçıları azərbaycanlı məmurların monitorinqinə icazə vermirlər və etiraz qeyri-müəyyən müddətə qədər davam edir. Azərbaycanın məqsədi yalnız yataqların monitorinqi deyil. Digər məqsəd Ermənistanla Qarabağı birləşdirən yolu nəzarətə götürməkdir. Bir müddətdən sonra ekoloqların etirazına fasilə verilsə belə fəalların əvəzinə yolun həmin hissəsində Azərbaycan hərbçiləri post qururlar və Qarabağa daxil olan və çıxan nəqliyyat vasitələrini yoxlamağa başlayırlar. Bu, 2020-ci ilin 9 noyabr bəyanatına zidd deyil, yol bağlanmır, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində nəzarətə götürülür".

**İsmayıl**



# Qərbi Azərbaycana qayıdış prioritetdir

## Paralel olaraq, bizim oradakı tariximiz, mədəniyyətimiz və dağıdılan kəndlərin aqibətləri də gündəmə gətirilməlidir

**”Biz Qərbi Azərbaycanı azərbaycanlılar yaşayan mahallar kimi yox, Türk yurdu olaraq qəbul etməliyik. Çünki orada ermənilər yox, Azərbaycan türkləri yaşayıblar”.**

*Bunu ”Şərq”ə açıqlamasında BDU-nun Jurnalistika fakültəsinin professoru, tarixçi-alim Nəsiman Yaqublu Qərbi Azərbaycanın tarixindən danışarkən deyib.*

Professor qeyd edib ki, ermənilər o ərazilərə sonradan Çar Rusiyasının təşəbbüsü ilə köçürülüb: ”Ermənilər tədricən Çar Rusiyasının əli ilə həmin bölgələri ələ keçirərək Azərbaycan türklərini sürgün ediblər. Biz isə orada qalan mədəniyyətimiz, abidələrimiz, məzarlarımız haqqında ciddi şəkildə düşünməliyik. Yəni bu gün ermənilərin revanş hərəkətləri, cinayətlərini ört-basdır etmək üçündür. Hələ mən bura işğaldan azad edilmiş torpaqlarımızda törədilən cinayətləri əlavə etmirəm. Bu mənada unutqanlıqlar ermənilər hər zaman Azərbaycana qarşı cinayət törətməyə və bir əlin gücü ilə etdiklərini gizlətməyə ”həvəsləndirib”.

**N.Yaqublunun sözlərinə görə, biz Qərbi Azərbaycan məsələsini daha da çox qabartmalıyıq:** ”Amma burada söhbət təkcə insanların yaşayışından yox, orada qalan mədəniyyət tariximizdən və dağıdılan kəndlərimizdən gedir. Bizim yüzlərlə kəndimiz dağıdılaraq adları erməni dilinə dəyişdirilib. Biz bu məsələ ilə bağlı beynəlxalq təşkilatları cəlb etməliyik. Məsələn, Aşıq Ələsgərin və s. kimi mədəniyyət xadimlərimizin qəbri hansı vəziyyətdədir? Ümumiyyətlə, Qərbi Azərbaycana qayıdış məsələsi ilə paralel olaraq, bizim oradakı tariximiz, mədəniyyətimiz və dağıdılan kəndlərin aqibətləri də gündəmə gətirilməlidir”.

# İmamoğlu Ərdoğanın əsas rəqibidir

## İqtidar komandası qarşıdan gələn seçkilər haqda ciddi düşünməlidir



**Türkiyədə prezident seçkisinin tarixi dəyişdirilə bilər. Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan rəhbərlik etdiyi Ədalət və İnkişaf Partiyasının (AKP) iclasında bildirib. Ərdoğan deyib ki, seçkinin vaxtının bir qədər irəli çəkilməsi ehtimalı var. Qeyd edək ki, ”Cümhur ittifaqı”nın liderləri Rəcəb Tayyib Ərdoğanla MHP sədri Dövlət Baxçalı arasında keçirilən görüşdə seçki tarixinin 9 və ya 30 aprel, həmçinin 14 mayda keçirilməsinin mümkün ola biləcəyi müzakirə edilmişdi.**

Daha əvvəllər isə prezident və parlament seçkisinin bu ilin iyunun 18-də keçiriləcəyi açıqlanmışdı. Seçki yaxınlaşdıqca namizədlər də müəyyənləşməkdədir. Türkiyəli siyasətçi, Demokratiya və Sıçrayış Partiyasının (DEVA) sədri Əli Babacan ”altılığın” namizədi ola biləcəyini söyləyib: ”Partiyamızda məsləhətləşmələr aparılır, başa çatdıqdan sonra altı partiyanın masasında vəziyyətlə bağlı mövqeyimizi təqdim edəcəyik. Amma təbii ki, altı partiya mənim namizədliyimi dəstəkləsə, mən namizəd ola bilərəm”. Məlumat üçün bildirək ki, müxalif ”altılıq” koalisiyası Cümhuriyyət Xalq Partiyası, İYİ Partiya, Səadət Partiyası, Demokrat Partiyası, Demokratiya və Sıçrayış Partiyası və Gələcək Partiyasından ibarətdir. Türkiyəli ekspertlər Cümhuriyyət Xalq Partiyasının sədri Kamal Kılıçdaroğlunun qazana bilməyəcəyini düşünəcəyi təqdirdə, geri addım atacağını iddia ediblər. Kılıçdaroğlunun da namizəd kimi Əli Babacanı dəstəkləyəcəyi deyilir. İYİ Partiyanın sədri Meral Akşener isə İstanbul bələdiyyə başçısı Əkrəm İmamoğlunu vahid namizəd görmək niyyətindədir. Bununla yanaşı, Ankara bələdiyyə sədri Mənsur Yavaşın da adı hallanmaqdadır.

**Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli ”Şərq”ə açıqlamasında deyib ki, 2017-ci ildə keçirilən aprel referendumundan sonra artıq Türkiyədə prezident və parlament seçkiləri eyni gündə keçirilir.** Partiya rəsmisi vurğulayıb ki, yeni qaydaya əsasən, Prezidentin seçilməsi üçün 50+1 faiz səs çoxluğu prinsipi əsas götürülür. Əgər ilk turda heç bir namizəd həmin səs çoxluğunu əldə edə bilmirsə, o zaman ən çox səs toplayan iki namizəd ikinci turda mübarizə aparır. Bu prinsip son günlərdə əsas müzakirə predmetinə çevrilib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəhbərlik etdiyi hakim Ədalət və İnkişaf Partiyası getdikcə güclənən müxalifət partiyalarının ikinci turda vahid namizəd ətrafında birləşərək qalib gəlmə ehtimalından narahatlıq keçirir. Ərdoğanın siyasi karyerası boyunca məğlubedilməzliyinin sirri barədə müxtəlif versiyalar səsləndirilir. Bir çox siyasi təhlilçilər bunu əsasən alternativsizliklə əlaqələndirirlər. Həqiqətən də, son 20 ildə nə iqtidar bloku daxilində, nə də müxalifət cəbhəsində Ərdoğanla müqayisə oluna biləcək liderlər ortaya çıxıb. Lakin müxalif namizədlərin son bələdiyyə seçkilərində böyük şəhərlərdə qələbə qazanması onların ümidlərini artırıb. İstanbul Bələdiyyəsinə rəhbərlik edən Əkrəm İmamoğlu öz üslubu ilə Cümhuriyyət Xalq Partiyasının (CHP) seçiciləri ilə yanaşı, dindar-mühafizəkar, mərkəz-solçu və kürd seçicilər arasında da rəğbət yaradıb. Hazırda Ərdoğanın ən böyük siyasi rəqibi kimi təqdim olunur”.

*S.Əsədlinin qənaətincə, Ankara Bələdiyyəsinə rəhbərlik edən digər CHP-li Mansur Yavaş isə qısa müddətdə uğurlu icraçı imici yaratmağa nail olub:* ”O, əsasən millətçi seçicilər tərəfindən dəstəklənir. Bütün bu faktorlar Ərdoğan komandasını qarşıdan gələn seçkilər haqda ciddi düşünməyə vadar edir. Buna görə seçkinin ertələnməsi və digər bu kimi məsələlər hakim partiyanın taktiki gedişləri sayıla bilər. Bütün hallarda qardaş ölkədə demokratiyanın qalib gəlməsini, xalqın iradəsinin gerçəkləşməsini və nəticələrin Türkiyənin inkişafına xidmət edəcəyini arzulayırıq”.

**İsmayıl Qocayev**



# "Hərbi-siyasi yol prioritet olaraq qalır"

## Pənah Hüseyn: “Antiterror əməliyyatları zərurət kimi ortalığa çıxır”

**Keçmiş baş nazir, Xalq Partiyasının sədri Pənah Hüseyn “Şərq”in suallarını cavablandırıb. Söhbəti təqdim edirik:**

**- Son günlər Zəngəzur dəhlizinin açılacağına dair ciddi nidalar səsləndirilir. Prezident İlham Əliyev də Yeni il və Dünya Azərbaycanlılarının Həmrəyliyi günü münasibətilə xalqı təbrik edərkən bu məsələyə toxundu və qeyd etdi:”Ermənistan istəsə də, istəməsə də Zəngəzur dəhlizinin açılması mütləq olmalıdır”. Proses niyə yubanır?**

- Zəngəzur dəhlizi məsələsinin mənalandırılması ətrafında müzakirələr aparılır. Ermənistan tərəfi kommunikasiya xəttinin açılmasının əleyhinə olmadığını, ancaq Ermənistanın nazarəti olmayan bir xəttin (Laçın dəhlizində olduğu kimi) verilməsinin əleyhinə çıxır.

**- Doğrudanmı Ermənistan istəmir deyə dəhliz açılmır, yoxsa bu işdə Rusiya, Qərb və İranın ”iradəsi” var?**

- Heç şübhəsiz ki, bu barədə rəsmi mövqelərini açıqlamasalar da, dəhlizin işə düşməsində Qərb ölkələrinin maraqlı görünmədikləri hiss olunur.

**- Niyə maraqlı deyillər?**

- Türkiyə və Rusiya arasında birbaşa əlaqələrin yaradılması və başqa məsələlərə görə...

**- Bəs İran niyə prosesləri ”tormozlamağa” çalışır?**

- Hər halda rəsmi Tehranın mövqeyi aydındır. Ermənistan buna razı olarsa, təbii ki, cənub qonşumuz dəhlizin açılmasına mane ola bilməz. Bu mənada İran və Qərbdəki bir sıra dövlətlərin maraqları üst-üstə düşür. Ermənistan da müqavimət göstərir. Eyni zamanda bu, sadə məsələ deyil. Mənə elə gəlir ki, kommunikasiya xətti əvvəl-axır açılacaq.

**- Zaman-zaman Laçın dəhlizinin statusunun dəyişdirilməsi məsələsi gündəmə gəlir...**

- Zəngəzur dəhlizi açılmayacaqsa, Laçın dəhlizinin statusu dəyişməlidir. Azərbaycanın strategiyasına uyğun olaraq hansısa bir formada sərhədlərin köçürüləcəyi və gediş-gəlişin bərpa olunacağını mümkün hesab edirəm. Hansısa bir dövrdə bu məsuliyyəti Azərbaycan dövləti öz üzərinə götürəcək. Bu, təkcə Ermənistanla deyil, Gürcüstan və başqa region dövlətləri ilə bağlı olan məsələdir.

**- Laçın dəhlizinin statusunun dəyişdirilməsi dedikdə konkret nələr nəzərdə tutulur? Detalları açardınız...**

- 2020-ci il 10 Noyabr tarixli bəyannaməyə görə, Laçın dəhlizi Rusiya sülhməramlılarının nəzarəti altındadır və orada Azərbaycanın suverenliyi məhdudlaşdırılıb. Həmin ərazidə Azərbaycanın sərhəd və gömrük xidməti fəaliyyət göstərmir. Bu da suveren bir dövlətin qanun və qaydalarına ziddir. Müvəqqəti olaraq belə bir vəziyyət Zəngəzur dəhlizinin açılıb-açılmamasından asılı olmayaraq dəyişilməlidir. Sülhməramlıların 5 illik missiyasının başa çatmasına 6 ay qalmış tərəflərdən biri etiraz edərsə, bu məsələyə yenidən baxılacaq. Bir daha təkrar edirəm, Laçın dəhlizinin indiki statusu qəbuledilməzdir. Həmin əraziyə nəzarət Azərbaycana qaytarılmalıdır, Gömrük Komitəsi və Dövlət Sərhəd Xidməti orada olmalıdır və həmin ərazi tam olaraq Azərbaycanın nəzarətinə keçməlidir. Mənim mövqeyim budur. Aralıq mərhələdə Rusiya və Türkiyə sülhməramlıları başqa formatlarda qarışıq nəzarət forması həyata keçirə bilərlər. Amma məsələnin mahiyyəti həmin ərazinin, Qarabağın ermənilər yaşayan hissəsi və işğal altında olmuş 3 min 400 kvadrat kilometr ərazi Azərbaycanın suverenliyinə qaytarılmalıdır.

**- Xankəndi - Laçın yolundakı aksiya ilə bağlı fikirləriniz maraqlıdır. Bəziləri bunu Rusiya və Azərbaycanın birgə ssenarisi kimi dəyərləndirir. Siz necə düşünürsünüz?**

> “Laçın yolundakı aksiya böyük hadisədir. Dünyanın diqqəti Azərbaycanın mövqeyinə cəlb olundu”

- Bu cür xırda təfərrüatlara getmək məsələnin mahiyyətinin yanlış qavranılmasına səbəb olur. Fakt odur ki, Rusiya sülhməramlılarının nəzarəti altında olan ərazinin toxunulmaz olmadığını həm Ermənistana, həm də dünyaya nümayiş etdirdik. O cümlədən orada yaşayan ermənilər də bunun şahidi oldular. Bu aksiya prinsip etibarilə 44 günlük Vətən savaşından sonrakı ”Qisas” və Sentyabr əməliyyatlarına bərabər hadisədir. Bundan başqa, məlum proses vasitəsilə dünyanın diqqəti Azərbaycanın mövqeyinə cəlb olundu. Status-kvonun davam etdirilməsinin mümkün olmadığı barədə Azərbaycanın münasibəti dünyaya bəyan olundu. Məlum aksiyanın Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının müzakirəsinə çıxarılması nadir hadisələrdən biridir. BMT-də bu məsələyə diqqət göstərildi. Ermənistanın dostlarının ciddi cəhdlərinə rəğmən adıçəkilən təşkilatda Azərbaycan əleyhinə sənəd qəbul olunmadı. Bu da rəsmi Bakının haqlı olmasının dolayısı yolla təsdiqi deməkdir. Eyni zamanda Azərbaycan bir daha Rusiya sülhməramlı kontingentinin 2020-ci ildəki bəyannamədən irəli gələn öhdəliklərinə əməl etməməsinə, orada terror birləşmələri və qanunsuz silahlı birləşmələrin tərk-silah olunmamasına diqqət çəkdi. 10 Noyabr bəyannaməsinin yerinə yetirilməyən bəndlərini ciddi şəkildə gündəmə gətirdi. Bundan əlavə o da sübut olundu ki, plasdarmda döyüşlər dayansa da, ibrid müharibə hələ davam edir. Sözügedən aksiya Azərbaycan xalqının iradəsini ortaya qoydu. Dövlətin bu işdə iştirakından asılı olmayaraq, ictimaiyyət nümayəndələrinin aksiyaya qoşulması tarixdə çox uğurlu hadisələrdən biri kimi qalacaq. Düşünürəm ki, prosesi davam etdirmək olar.

**- 26 gündən artıqdır davam edən aksiyadan indiyə kimi hansı nəticələr hasil olunub?**

- Bu aksiyanın nəticəsində Vardanyan faktoru xeyli dərəcədə sıradan çıxdı. Azərbaycan onunla danışığa getməkdən imtina etdi. Ərazilərimizdə faydalı qazıntıların aparılması və digər başqa məsələlərin Azərbaycanla müzakirəsinin başladılması suverenliyə doğru müəyyən addımların atılmasına səbəb oldu. Sosial şəbəkələrin Azərbaycan seqmentində əksəriyyət aksiyanı və onun tələblərini müdafiə etdi. Bu da ciddi nəticələrdən biridir. Yekunda hesab edirəm ki, hərbi-siyasi yol prioritet olaraq qalır və antiterror əməliyyatları zərurət kimi ortalığa çıxır.

**- Qərbi Azərbaycana qayıdışa dair da intensiv fikirlər eşidirik. Qayıdış realdırmı və bu yolda bizi nə kimi çətin sınaqlar gözləyir?**

- Hərbi yolla qayıdış nəzərdə tutulmur. Azərbaycan Prezidenti çıxışında buna aydınlıq gətirib. Söhbət Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması şəraitində 1980-ci illərin sonunda deportasiya olunmuş insanların öz yaşayış yerlərinə qayıtmasından, onların mülkiyyət hüquqlarının bərpasından gedir. Bu istiqamətdə işə başlanıb. Beynəlxalq məhkəmələrə müraciətlər olunub. Strategiya olaraq ən mühüm məsələ rəsmi səviyyədə Qərbi Azərbaycan və ora qayıdış konsepsiyasının hazırlanması ideyasından ibarətdir. Bu vaxta qədər daha çox Zəngəzur dəhlizinə dair ifadələr eşidirdik və bu istiqamətdə danışılırdı. Heç bir ssenariyə indidən ”stop” qoyulmasının tərəfdarı deyiləm. Fakt bundan ibarətdir ki, mütləq əhalisi azərbaycanlılardan ibarət olan bu region keçən əsrin əvvəllərindən faktiki olaraq boş qalıb, iqtisadi və humanitar yollarla insanlarımızın həmin ərazilərə qayıtmasının gündəmə gətirilməsi çox vacib hadisədir. Gələcəkdə Ümumqafqaz Evinin yaradılması, Cənubi Qafqaz xalqları və ölkələri arasında münasibətlərin formalaşmasında qayıdış məsələsi mühüm rol oynaya bilər. Bunun müharibə və silah yolu ilə icra olunan məsələ kimi başa düşülməsi doğru deyil. Təkrar edirəm, hadisələr elə dinamika ilə inkişaf edə bilər ki... Bu mənada Azərbaycan Silahlı Qüvvələri bütün bölgədə, Cənubi Qafqazda təhlükəsizliyin təminatı üçün hazır olmalıdır. Dünyadakı prosesləri və onun regiona təsirlərini nəzərə alsaq, söylədiyim fikir heç də nəzəri cəhətdən abstrakt deyil.

**- Bəzi politoloqlar bildirirlər ki, yekun sülhə gəlmək üçün Qarabağın erməni əhalisi ilə danışıqlar aparılmalıdır. Hətta onlara 10-15 min dollar kompensasiyanın vəd edilməsini təklif edirlər.**

- Hər halda Azərbaycanın rəsmi mövqeyi bəyan olunub. Azərbaycan dövləti Qarabağda yaşamış, orada anadan olmuş, hazırda orada yaşayan Azərbaycan vətəndaşı kimi yaşayışını davam etdirmək istəyən ermənilərlə danışmağa hazırdı. Bu, Azərbaycanın öz vətəndaşı ilə ünsiyyəti kimi dəyərləndirilməlidir. Bu mənada müxtəlif ideyalar ortaya atılır. Qarabağda yaşayan ermənilərin Azərbaycana inteqrasiyası, onun müxtəlif formalarda davamı, xüsusi bir muxtar status olmadan milli, mədəni hüquqlarının təminatı barədə vəd irəli sürülüb. Hazırda ünsiyyət o dərəcədə deyil ki, bu istiqamətdə işə başlanılsın. Amma Rusiya sülhmərmalıları və hansısa beynəlxalq vasitəçi olmadan da bu istiqamətdə müəyyən prosesin başlaması mümkün ola bilər. Vardanyan layihəsi, revanşist əhval-ruhiyyənin güclənməsi, Suqovuşandakı hadisələr, Sərsəng ətrafındakı bəzi təxribatlar məhz sülh prosesinin qarşısını almağa yönəlib. Birinci məsələ təhlükəsizliyin təmin olunması və Azərbaycanın suverenliyinin qəbul edilməsidir.

**- Naxçıvanda nələr baş verir, muxtariyyət ləğv oluna bilərmi?**

- Bu, yeni məsələ deyil. Azərbaycanın müstəqilliyi bərpa olunandan sonra analoji müzakirələr gedirdi. Mövqeyim ondan ibarətdir ki, bu məsələlər konstitusion yollarla həll olunmalıdır. Azərbaycanın unitar dövlət quruluşuna uyğun dəyişikliklər edilməlidir. Bunun üçün də referendum keçirərək məsələləri həll etmək olar. Hazırda Naxçıvanın konstitusiyasında belə bir müddəa var ki, Naxçınan MR-in ali vəzifəli şəxsi, yəni Ali Məclisinin sədri həm qanunverici, həm də icraedici hakimiyyəti həyata keçirir. Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvandakı komanda heyətinə təlimatlar verir. Naxçıvanın xarici əlaqələri məsələsini reallaşdırır. Naxçıvanın azad iqtisadi zonaya çevrilməsinin modeli işlənilməlidir. Bölgənin təhlükəsizliyi üçün Naxçıvanın əhəmiyyətli rolu var. Beynəlxalq və regional razılaşmalarda bu işlərə baxıla bilər. Son dövrdə Naxçıvanda Vasif Talıbovun şəxsiyyəti ilə simvolizə olunan bir istibdad rejimin olması göz önündə idi. Bu da dərinə işləmiş korrupsiyanın nəticəsidir. İnsanların hüquqlarının pozulması barədə təkzibolunmaz faktlar ortada idi. Naxçıvanda bəzi ölkələrin separatçı hərəkətlərinin qarşısının alınmadığı barədə də müəyyən faktlar meydana çıxır. İranın fəaliyyəti barədə danışılır. İndi Naxçıvanda məmur-oliqarx rejiminin menecment idarəçilik üsulu ilə əvəzlənməsi prosesi gedir. Azərbaycanın demokratik qüvvələri demokratik yolu dəstəkləyir. Naxçıvan məmur-oliqarx sisteminin axırıncı qalası idi. Orada da bu sistemin aradan qaldırılmasına ehtiyac vardı, buna da Vasif Talıbov əngəl törədirdi. Hesab edirəm ki, Naxçıvandakı ”təmizləmə” işləri Azərbaycanda gedən prosesin tərkib hissəsidir. Fikrimcə, mütərəqqi addımdır, prosesi dəstəkləyirik.

> “Naxçıvan məmur-oliqarx sisteminin axırıncı qalası idi. Orada da bu sistemin aradan qaldırılmasına ehtiyac vardı, buna da Vasif Talıbov əngəl törədirdi. Hesab edirəm ki, Naxçıvandakı ”təmizləmə” işləri Azərbaycanda gedən prosesin tərkib hissəsidir. Fikrimcə, mütərəqqi addımdır, prosesi dəstəkləyirik”

**- Naxçıvandakı ”təmizləmə” prosesinə ”naxçıvanlılar vurulur” intonasiyası ilə yanaşanlar da var...**

- Bunun heç bir əsası yoxdur. Belə fikirlərə qətiyyən uymaq olmaz. Naxçıvan əhalisində milli dövlətçilik şüuru formalaşıb. Onlar təxribata imkan verməzlər. Hər halda bu amili nəzərə almaq lazımdır. Bu təkcə Naxçıvanda olan problem deyil, ümumən Azərbaycan dövlətinin problemi idi. Dəyərləndirmələr də bu istiqamətdə aparılmalıdır.

**- Bəy, siz də zaman-zaman dövlət qurumlarının işğaldan azad olunan ərazilərə təşkil etdiyi səfərlərdə iştirak etmisiniz. Media nümayəndələri, siyasi partiya və QHT rəhbərləri də məlum səfərlərə qatılırlar. Amma bəzi qüvvələr həmin şəxslərə ”Avtobus jurnalisti”, ”Avtobus müxalifəti” kimi ayamalar yapışdırırlar. Özünüzü ”Avtobus müxalifəti” hesab edirsinizmi və burada pis olan nədir?**

- Bu, doğru yanaşma deyil, açığı, həmin epitetdən narahatlıq da keçirmirəm. Çalışmalıyıq ki, öz fəaliyyətimizlə doğru olmayan fikirləri ortaya qoyaq. Əlbəttə, Azərbaycanda müxalifət adına çıxış edib, imitasiya yaradanlar da var. Bu mənada ”Avtobus jurnalisti”, ”Avtobus müxalifəti” ayamasını hər kəsə şamil etmək olmaz. Bu həm etik deyil, həm də siyasi baxımdan doğru anlaşılmır. Ümumiyyətlə, azad olunmuş torpaqlarda olmaq hamı üçün müqəddəs arzudur. Səfərlərdə siyasi partiya rəhbərləri ilə yanaşı, xarici ekspertlər, ölkənin ictimaiyyət nümayəndələri də iştirak edirlər. Azad olunmuş torpaqlarımıza ayaq basmaq siyasi mənsubiyyətdən daha çox mənəvi məsələdir. Bu cür əks-təbliğatların aparılması doğru deyil. İşğaldan azad olunmuş ərazilərə səfər təklif olunarsa, yenə də gedərəm. Maraq və mənafeləri siyasi ideologiya ilə qarışdırmaq olmaz. Belə bir ifadə var: Hər şey ötəridir, maraqlar əbədidir. Əslində, maraqlar da keçicidir, bizə qalan vətən və dövlətdir. Azərbaycandır!.

**Söhbətləşdi: Ayyət Əhməd**

# Vasif Talıbov Naxçıvana dağ çəkmişdi

## İndi naxçıvanlıların üzündə təbəssüm var, gələcəyə ümidləri, inamları artıb



**"2022-ci il Naxçıvan üçün çox uğurlu il oldu. Naxçıvan Vasif Talıbovun despot rejimindən xilas edildi". Bu sözləri "Şərq"ə Naxçıvanda səfərdə olan, "TNS" İnformasiya Agentliyinin baş redaktoru, naxçıvanlı jurnalist Tural Səfərov deyib. Baş redaktorun sözlərinə görə, Naxçıvan artıq yeni mərhələyə qədəm qoyub: "Əvvəllər Naxçıvana gələndə insanların üzündə kədər və narahatlıq sezirdim.**

Ancaq budəfəki səfər zamanı tamam fərqli mənzərəni müşahidə elədim. Naxçıvanlıların üzündə təbəssüm var, gələcəyə ümidləri, inamları artıb. Bu da ondan xəbər verir ki, Naxçıvanda artıq yeni dövr başlayıb. Yeni rəhbərlik mövcud problemlərin həlli istiqamətində çox ciddi addımlar atır. Naxçıvan Ali Məclisinin qarşısı şikayətə gələn insanlarla doludur. Şikayətlərinə baxıldığı, problemlərin həll istiqamətində tədbirlər görüldüyü üçün çox razıdırlar. Prezidentin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və daxili işlər naziri Süleyman Neymətovla qısa görüşümüz reallaşdı. Fuad müəllim bildirdi ki, insanların narahatlığı, qayğıları var. Qeyd etdi ki, dövlət başçısının tapşırığına əsasən Naxçıvanın problemlərinin həlli istiqamətində çox ciddi tədbirlər görülür, addımlar atılır".

**T.Səfərov Naxçıvanı xoş günlərin gözlədiyini söyləyib:** "Əslində Naxçıvanda böyük quruculuq işləri aparılıb. Amma bunların Vasif Talıbova heç bir aidiyyəti yoxdur. Görülən işlərin hamısı dövlətimizin ayırdığı vəsaitin, birbaşa Prezidentin diqqət və qayğısı hesabına həyata keçirilib. Naxçıvanın keçmiş rəhbərliyi heç bir çıxışında bu işlərin dövlətimiz tərəfindən həyata keçirildiyini vurğulamayıb. Elə bir təəssürat yaradıb ki, sanki Naxçıvanda bu işləri görən Vasif Talıbovdur. Halbuki Vasif Talıbov Naxçıvanı dağıdıb. Ayrılan vəsaiti də, dotasiyanı da mənimsəyib. Faktiki olaraq Naxçıvanı Azərbaycandan qoparmışdı. "Müstəqil dövlət" üçün lazım olan bütün təsisatları yaratmışdı. Naxçıvana dağ çəkmişdi. Lakin artıq Naxçıvanı parlaq və gözəl gələcək gözləyir. İnsanlar yeni rəhbərlikdən çox razıdır və buna görə cənab Prezidentə minnətdarlıq edirlər".

İsmayıl Qocayev



# 800 mindən çox insan faydalanacaq

## Minimum əməkhaqqı alan bütün vətəndaşların maaşları artacaq

**Ölkə əhalisinin sosial müdafiəsinin gücləndirilməsi aparılan sosial-iqtisadi siyasətin mühüm prioritetlərindən biridir. Son illərdə bu istiqamətdə ciddi irəliləyişlərə nail olunub, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, sosial ödənişlərin, əməkhaqlarının artırılması istiqamətində ardıcıl addımlar atılıb.**

Ekspertlərin fikrincə, Azərbaycanda əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən siyasət mövsümi deyil, davamlı və sistemli xarakter daşıyır. Prezident İlham Əliyevin imzaladığı "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Sərəncam da davamlı və sistemli xarakter daşıyan fəaliyyətin tərkib hissəsidir. Bu Sərəncam son beş ildə artıq dördüncü sosial islahat paketinin icrasına başlanmasını, yeni ildə yeni sosial islahat mərhələsinə keçidi təmin edir.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin imzaladığı sərəncam ilə minimum əməkhaqqı 345 manata çatdırılıb. Sərəncama əsasən, minimum pensiya 280 manata çatdırılacaq, müavinət və təqaüdlər də artırılacaq. Artımlar yanvarın 1-dən hesablanacaq.

**Millət vəkili Azər Badamovun sözlərinə görə, ölkə başçısının son sərəncamı sosial təminata daha çox ehtiyacı olan vətəndaşlarımızın sosial müdafiəsinin gücləndirilməsi baxımından vacibdir.** 700 min vətəndaşımızı əhatə edəcək minimum əməkhaqqındakı artım üçün dövlət büdcəsindən əlavə 450 milyon manat ayrılacaq. Minimum pensiyadakı artımı da nəzərə alsaq maaş və pensiyalar üzrə artımdan 800 mindən çox vətəndaşımız birbaşa faydalana biləcəklər. Bu o deməkdir ki, hansı sektorda çalışmasından asılı olmayaraq minimum əməkhaqqı alan bütün vətəndaşlarımızın maaşları artacaq. Artımlar özəl sektoru da əhatə edəcək. Yəni yalnız dövlət sektorunda deyil, özəl sahədə də bu ildən 345 manatdan az əməkhaqqı verilə bilməz: "Əhalinin sosial rifahının yaxşılaşdırılması dövlət siyasətinin təməlində dayanır. Belə ki, pandemiyanın təsirlərinin minimumlaşdırılması məqsədilə sosial dəstək paketləri icra olundu. O cümlədən əməkhaqların, pensiya və müavinətlərin artırılması ilə əlaqədar proqramlar mütəmadi icra olunur. Təbii ki, insanların maddi təminatlarının yaxşılaşdırılması istiqamətində atılan addımlar ümumi bahalaşmaların və inflyasiyaların əhalinin rifahına mənfi təsirlərini azaldır.

Minimum əməkhaqqının artırılması bütün sferalarda işləyənlərin əməkhaqlarının artmasına müsbət təsir göstərəcək. O cümlədən müavinətlərdə də artımlar olacaqdır. Belə sərəncamların mütəmadi imzalanmasını Prezident İlham Əliyevin siyasətinin təməlində vətəndaşların rifahının dayandığının göstəricisi hesab edirəm".

Şəymən

**Rusiya Prezidenti Vladimir Putin müdafiə naziri Sergey Şoyquya yanvarın 6-da saat 12:00-dan yanvarın 7-də saat 00:00-dək Ukraynanın bütün təmas xətti boyunca atəşkəs rejiminin tətbiq edilməsi barədə göstəriş verib. Putin bu addımı Moskvanın və bütün Rusiyanın Patriarxı Kirillin müraciətini nəzərə alaraq atıb. Ukrayna tərəfi isə Rusiyanın təmas xətti boyunca atəşkəs elan etməsinə mənfi münasibət bildirib. Ukrayna Prezidentinin Aparat rəhbərinin müşaviri Mixail Podolyak deyib ki, Rusiya işğal etdiyi ərazləri tərk etməlidir: "Yalnız bundan sonra müvəqqəti atəşkəs başlayacaq".**




# Rusiya dünyayla üz-üzədir

## Ukrayna yeni silahlara yiyələnib, müharibə şiddətlənəcək

### "Rusiyanın atəşkəs tətbiqi sülh perspektivlərini inkişaf etdirməyəcək"

Böyük Britaniyanın xarici işlər naziri Ceyms Kleverli deyib ki, Rusiyanın hücumları 36 saatlıq dayandırması qərarı sülh perspektivlərini inkişaf etdirməyəcək. Onun sözlərinə görə, Rusiya öz qüvvələrini həmişəlik geri çəkməlidir: "Rusiya Ukrayna ərazisinə qanunsuz nəzarətindən əl çəkməli və günahsız mülki şəxslərə qarşı vəhşi hücumlarına son qoymalıdır".

### "Putinin atəşkəs elanı informasiya əməliyyatıdır"

ABŞ mərkəzli Müharibə Araşdırmaları İnstitutunun analitikləri bildiriblər ki, yanvarın 6-dan 7-dək Rusiya qoşunlarının atəşkəs rejiminə əməl edəcəyi barədə açıqlaması Ukraynanın reputasiyasına xələl gətirmək məqsədi daşıyan informasiya əməliyyatıdır. Təhlilçilərin fikrincə, Putin Rusiya qoşunlarının dincəlməsinə, bərpasına və cəbhənin kritik sektorlarında hücum əməliyyatlarını bərpa etmək məqsədilə öz istiqamətlərini dəyişməsinə imkan verməsi üçün onlara fasilə əldə etməyə çalışmış ola bilər. Bu fasilə Rusiya qoşunlarına qeyri-mütənasib şəkildə yararlı olacaq və Ukraynanı təşəbbüsdən məhrum etməyə başlayacaq. Analitiklərin qənaətincə, Putin Ukraynanı barışmaz və danışıqlar üçün lazımi addımları atmaq istəməyən kimi göstərmək üçün atəşkəsə çağırıb. İnstitut qeyd edib ki, bu, əvvəllər Rusiyanın istifadə etdiyi məqsədyönlü informasiya taktikasıdır. Atəşkəsin təşkili və gerçəkləşdirilməsi də vaxt tələb edir.

### "Rusiya qoşunlarının Ukraynadan çıxarılması sülhün yeganə yoludur"

Avropa İttifaqı (Aİ) Şurasının Prezidenti Şarl Mişel bildirib ki, Rusiya qoşunlarının Ukraynadan çıxarılması sülh və təhlükəsizliyin bərpasının yeganə ciddi yoludur. O deyib ki, təcavüzkar Kreml, qurban isə Ukrayna xalqıdır: "Birtərəfli atəşkəs elanı qeyri-qanuni ilhaqlar və referendumlar qədər yalan və ikiüzlüdür".

ABŞ Dövlət Departamentinin sözçüsü Ned Prays deyib ki, əgər Rusiya sülhə, müharibəyə son qoymağa ciddi yanaşsaydı, qoşunlarını Ukraynanın suveren ərazisindən çıxarardı. Onun sözlərinə görə, Rusiyanın birtərəfli atəşkəs rejimi tətbiq etməsi yeni hücumlar üçün qüvvə toplamaq məqsədi daşıyır. Prays xatırladıb ki, ABŞ dövlət katibi Entoni Blinken bir neçə həftə əvvəl Rusiyanın yenidən silahlanmaq, qruplaşmaq və hücuma keçmək üçün fasilədən istifadə edəcəyini proqnozlaşdırmışdı: "Biz əminik ki, Rusiyanın hazırkı bəyanatını atəşkəs kimi qiymətləndirmək olmaz".

### BMT baş katibi Rusiya və Ukrayna arasındakı atəşkəsi alqışlayır

BMT baş katibi Antoniu Quterreş Rusiya və Ukrayna arasındakı atəşkəsi alqışlayıb. Bunu baş katibin sözçüsü Stefan Dujarrik deyib. O qeyd edib ki, tərəflərin bu dövrdə hörmət göstərməsi və düşmənçiliyi dayandırması ehtimalı baş katib tərəfindən müsbət qarşılanır: "BMT beynəlxalq hüquq əsasında Ukraynadakı münaqişənin dayandırılmasına kömək etməyə hazırdır. Biz beynəlxalq hüquqa və BMT Nizamnaməsinə uyğun olaraq bu müharibənin sona çatmasını istərdik və tərəflərin bu məqsədə çatmasına kömək etməyə hazırıq".

### "Rusiya-Ukrayna müharibəsi qarşıdakı aylarda daha da şiddətlənəcək"

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın sözçüsü İbrahim Kalın tvitərdə yazıb ki, Rusiya-Ukrayna müharibəsi qarşıdakı aylarda daha da şiddətlənəcək. O bildirib ki, bu, daha çox ölüm və daha uzunmüddətli böhran deməkdir: "Atəşkəsdən əsir mübadiləsinə, taxıl daşınmasından nüvə təhlükəsizliyinə qədər bütün sahələrdə Türkiyə dialoqun təmin olunması üçün səylərini davam etdirir".

### "Elan olunan atəşkəsə əməl edilsə də, müharibə yenə davam edəcək"

Politoloq Sədrəddin Soltan deyib ki, Ukrayna tərəfinin Moskvanın elan etdiyi atəşkəsə razılıq verməməsi rəsmi Kiyevin Rusiyadakı hakimiyyətə etibar etmədiyini göstərir. Ekspert xatırladıb ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan yanvarın 5-də Vladimir Putinlə telefon danışığında qarşı tərəfə Ukraynada birtəfəli qaydada atəşkəs etməsini istəmişdi: "Elan olunan atəşkəsə əməl edilsə də, müharibə yenə davam edir və edəcək. Rəsmi Moskva bu ölkəyə qarşı təbii qaz, elektrik və istilik enerjilərindən də silah kimi istifadə edir. Ukraynanın istilik və elektrik mərkəzlərinin vurulması buna əyani sübutdur. Deməli, Rusiya Ukraynaya raket və pilotsuz uçuş aparatları (PUA) vasitəsilə hücum edir. Bu hərbi əməliyyatlar nəticəsində Ukrayna şəhərləri xarabalığa çevrilir. Bu ilin noyabrına olan məlumata əsasən, Rusiya Silahlı Qüvvələrinin təcavüzü nəticəsində Ukraynanın yaşayış, qeyri-yaşayış və infrastrukturlarına 135,9 milyard dollarlıq birbaşa ziyan dəyib. Cari ilin ilk günü Ukrayna müdafiəçilərinin Donetskin Makeyevka şəhərində keçirdiyi hərbi əməliyyat nəticəsində Rusiyanın 89 hərbçisi ölüb, çoxlu sayda əsgəri yaralanıb. Bu, Rusiyanın bir əməliyyatda verdiyi ilk çoxsaylı itki deyil".

### "Moskva üçün xoş olmayan mənzərə yaranar"

Analitik qeyd edib ki, ABŞ və müttəfiqləri Ukraynaya silah, hərbi texnika və sursat tədarükünü davam etdirir. Bu silahlar ona ərazisini müdafiə etmək məqsədilə göndərilir: "Bununla belə, Böyük Britaniya rəsmiləri bir neçə ay öncə Ukraynaya tədarük etdikləri silah və hərbi texnika ilə Rusiya ərazisinə hücuma icazə verdiklərini bildirmişdi. Almaniya hökuməti isə Rusiyanın hücumuna məruz qalan Ukraynanın ölkə hüdudlarından xaricdə özünü müdafiə məqsədilə əməliyyat keçirmək hüququnun olduğunu bildirib. Rusiya hərbi gəmilərinin imkanlarından ABŞ-ni və müttəfiqlərini hədələmək, yaxud onların maraqlarına zərbə vurmaq üçün istifadə edə bilər. Xüsusilə Aralıq dənizi və Atlantik okeanda bunu etmək mümkündür. Moskva bu addımı atarsa, ona qarşı beynəlxalq koalisiyanın cavabı daha təsiredici və güclü olar. Çünki indiyədək Ukrayna Qərbin verdiyi silah və hərbi texnika ilə Rusiyaya qarşı döyüşür. Bu halda koalisiya da müharibəyə birbaşa cəlb oluna bilər. Ancaq koalisiya Rusiyaya qarşı aksiyaya başlayarsa, Moskva üçün xoş olmayan mənzərə yaranar. Bundan başqa, Ukrayna perspektivdə daha müasir raket və başqa hərbi texnika alarsa, onda Rusiyanın Xəzərdəki və ölkəyə hücum edilən başqa bazalarına da zərbə endirə bilər. Hər halda baş verənlər müharibənin Rusiyanın beynəlxalq səviyyədə tanınan ərazilərinə keçəcəyini ehtimal etməyə əsas verir. Rusiya Ukraynada hücumu sərtləşdirərsə, bumeranqı öz ərazisində görəcək".

İsmayıl

# Güc birlikdədir

## Diaspor təşkilatları səfirliklərimizin ətrafında birləşməlidir

**"Diaspor təşkilatlarının səfirliklərlə bir yerdə çalışması, tədbirlər keçirməsi günün tələbidir". Bu sözləri "Şərq"ə açıqlamasında Diaspor Fəaliyyətinə Jurnalistlərin Dəstəyi İctimai Birliyinin sədri Fuad Hüseynzadə deyib. Ekspert bildirib ki, Prezident İlham Əliyev bir neçə dəfə səfirliklərimizə, diaspor təşkilatlarına göstəriş verib ki, daim əlaqədə olsunlar, birgə fəal əlaqəli şəkildə işləsinlər: "Ziddiyyətlər aradan qaldırılmalıdır.**



Müxtəlif ölkələrdə erməni lobbisi daha da radikallaşaraq açıq şəkildə Azərbaycanla bağlı böhtan xarakterli məlumatlar yayır. Ölkəmizə qarşı qara kampaniya aparırlar. Hətta bəzən konkret səfirliklərimizi və diasporumuzu hədəfə alaraq əsassız yazılarla çıxış edirlər. Bu tendensiya, xüsusən Skandinaviya ölkələrində daha çox özünü büruzə verir. Məsələn, İsveçdə elə jurnalist var ki, Azəraycana qarşı 130-dan artıq məqalə yazıb. Arzuolunmaz görə, bir çox hallarda belə jurnalistlər erməni diplomatlarının maliyyəsi ilə Azərbaycana qarşı yazılar yazırlar. Başqa ölkələrin jurnalistlərini də bu kimi məqalələr yazmağa təhrik edirlər. Bu baxımdan indiki vəziyyətdə səfirliklərimizlə diasporumuzun dövlətimiz naminə birgə çalışmaları zərurətdir. Bu formada düşmənə qarşı effektiv nəticəsi olan işlər görmək mümkündür".

**F.Hüseynzadə vurğulayıb ki, diaspor təşkilatları səfirliklərə öz təşəbbüskarlıqlarıı ilə dəstək olmalı, əməkdaşlığı gücləndirməlidir:**

"Bu fəaliyyət Azərbaycanın xaricdə təbliğatının daha da güclənməsinə və müsbət imicinin formalaşmasına xidmət etməlidir. Səfirliklərimiz diaspor jurnalistləri ilə birgə fəaliyyət göstərdikləri ölkələrin media nümayəndələri ilə əlaqəli şəkildə işləməlidir. Küveytdəki səfirliyimizin effektiv fəaliyyətini model olaraq göstərmək olar. Artıq Azərbaycana dost olan küveytli jurnalistlərin sayı ildən-ilə artmaqdadır. Məhz onların sayəsində Küveyt və digər ərəb ölkələrində Azərbaycan həqiqətlərinin yayılması işi asanlaşıb. Bununla yanaşı, bəzən tanınmış küveytli jurnalistlər öz təcrübələrini seminar şəklində gənc azərbaycanlı jurnalistlərlə bölüşürlər. Xaricdəki azərbaycanlıların yüksək mövqelərə sahib olmaları və ölkəmizi ləyaqətlə təmsil etmələri səfirliklərin də maraq dairəsində olmalıdır. Diaspor təşkilatlarının səfirliyə söykənməsi elə dövlətimizə arxalanması deməkdir. Prezident İlham Əliyev dəfələrlə bildirib ki, güclü müstəqil Azərbaycan dövləti dünyada yaşayan bütün soydaşlarımızın arxasında dayanır. Prezident sonuncu dəfə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibəti ilə müraciətində bir daha qeyd etdi ki, Azərbaycan dövləti onlar üçün böyük dayaqdır. Dövlətin gücünün artması diaspor nümayəndələrinə və onların fəaliyyətinə də müsbət təsir edir. Diaspor nümayəndələri bilməlidirlər ki, səfirliklərimiz Azərbaycanın xarici siyasətini aparır və dövlətimizi təmsil edirlər. Fikrimizcə, diaspor təşkilatlarının səfirliklər ətrafında birləşməsi dövlət siyasətimizi daha da gücləndirər".

İsmayıl Qocayev

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Elmi-Kütləvi, Mədəni-Maarif, Təhsil Proqramlarının Hazırlanması**




# Gənclər beyinlərinin məhsulunu ortaya qoya biləcək

## STEAM Mərkəzi məktəblilər və tələbələrə XXI əsr bacarıq və qabiliyyətlərini yüksəltməyə imkan verir

**Azərbaycan dövlət siyasətinin prioritet sahələrindən biri, sözsüz ki, elm və təhsil sektorudur. Prezident İlham Əliyevin təhsil və elmin dövlət qayğısından kənarda qalmamasına xüsusi diqqət ayırdığını yeni məktəb binalarının tikintisi, elmi mərkəzlərin sayının artması, azərbaycanlı tələbələrin dövlət hesabına dünyanın aparıcı təhsil ocaqlarında təhsillərini davam etdirmələri, uşaq və gənclərin yaradıcı imkanlarının genişləndirilməsi məqsədilə təşkil edilən müsabiqələr sübuta yetirir.**

Müasir dünyanın ayrılmaz parçası olan ölkəmiz təbii ki, elm və təhsil sahəsində də qabaqcıl texnologiyaların mənimsənilməsi baxımından da öndə olmalıdır. Bu günlərdə istifadəyə verilən "STEAM İnnovasiya Mərkəzi" müasir innovasiyalara yiyələnmək üçün ölkəmizdə daha da əlverişli şərait yarandığını göstərir. Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva paytaxtdakı "STEAM İnnovasiya Mərkəzi"nin açılışında iştirak ediblər. Elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına və birinci xanıma Mərkəzdə yaradılan şərait barədə məlumat verərək bildirib ki, "STEAM İnnovasiya Mərkəzi"nin dördmərtəbəli yeni binasında aviasiya məkanı, klassik Nyuton, uşaqlar üçün Nyuton, konfrans, oyun, konstruksiya, "Heureka Classics" otaqları, robotların hazırlanması laboratoriyası, "3D hologram", VR zonaları mövcuddur. Müasir dünya reallıqları gələcəkdə yüksəkixtisaslı mütəxəssislərin yetişməsi üçün təhsil qarşısında bir çox mühüm vəzifələr qoyur. Həyatın bütün sahələrində işlərin yeni dünya düzəninə uyğun qurulması üçün təhsil ocaqlarında öyrənmək maraqlı olmalı, bilik təcrübədə tətbiq edilməli, təlim maraqlı formada keçilməlidir. Bu günün məzunları müasir tələblərə cavab verən, əmək bazarında özünü doğruldan şəxslər olmalıdır. Elə bu məqsədlə də Elm və Təhsil Nazirliyi 2019-2020-ci tədris ilindən başlayaraq Heydər Əliyev Fondunun dəstəyi ilə "STEAM Azərbaycan" layihəsinə start verib. STEAM - elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyatın birləşməsi nəticəsində yeni ideyaların reallaşdırılması, cəmiyyətdə müxtəlif problemlərin həllinə kömək edə biləcək təhsil yanaşmasıdır. Hazırda ölkəmizin bir sıra məktəblərində STEAM otaqları və mərkəzləri fəaliyyət göstərir. "STEAM Azərbaycan" layihəsinin davamı olan "STEAM İnnovasiya Mərkəzi"nin fəaliyyəti orta məktəblərdə eyniadlı mövcud mərkəzlərin tədris proqramına görə fərqlənir. Bu Mərkəzə müraciət edən müxtəlif yaş kateqoriyasından olan məktəblilər və tələbələr XXI əsr bacarıqlarını - kreativliyi, əməkdaşlığın inkişaf etdirilməsini, müxtəlif proqramlaşdırma dillərini tətbiq etməklə müasir İKT avadanlıqlarından istifadə qabiliyyətlərini yüksəldəcəklər. Uşaqlar real həyat problemləri ilə qarşılaşdıqda, STEAM metodu vasitəsilə onun rahatlıqla ən uyğun həlli yollarını tapmağa çalışacaq və yaradıcı yanaşmalarını nümayiş etdirəcəklər. Mərkəzin məqsədi şagirdlərin potensialını və maraqlarını cəmiyyətə xidmət işinə yönəltmək, onları öyrənməyə həvəsləndirməkdir. STEAM tədris üsulu müasir dövrdə ölkənin sosial-iqtisadi inkişafında çox böyük əhəmiyyətə malikdir. Uşaqlar bu metod vasitəsilə elmin digər sahələri ilə yanaşı, beyinlərinin məhsulunu ortaya qoya biləcək, gələcəyin mütəxəssisləri kimi yetişəcək və ölkənin inkişafına töhfələrini verəcəklər. Bu Mərkəzin yaradılması dövlətimiz tərəfindən ölkəmizdə elm və təhsil sahəsində yeniliklərin tətbiqinə, təhsilin müasir tələblər səviyyəsində inkişaf etdirilməsinə, gənc nəslin yeni ideyalarının reallaşdırılmasına göstərilən diqqətin və verilən əhəmiyyətin əyani təzahürüdür.

**STEAM İnnovasiya Mərkəzinin fəaliyyətə başlamasını elm və təhsil sahəsində böyük üstünlük adlandıran təhsil eksperti Kamran Əsədov qeyd etdi ki, belə bir mərkəzin yaradılması şagird və tələbələr qarşısında geniş imkanlar açır:**

- Əvvələ onu qeyd edim ki, STEAM Mərkəzi ilə yanaşı, cənab Prezident və ölkəmizin birinci xanımı Mehriban Əliyeva həm də sovet dönəmində Y.Qaqarin adına Pioner və məktəblilər Sarayı kimi tanınan, müstəqillik illərində isə görkəmli alim və siyasi xadim Tofiq İsmayılovun şərəfinə adlandırılan Uşaq-Gənclər İnkişaf Mərkəzində yaradılmış şəraitlə də tanış oldular. Bu mərkəz əsaslı təmir və bərpa edilib. Sovet dönəminin şagirdləri yaxşı xatırlayır ki, o zamanlar bu sarayda müxtəlif dərnəklər fəaliyyət göstərirdi. Və

### *Kamran Əsədov: "Biz artıq elm və təhsili yeni, müasir çağırışlara uyğunlaşdırmalıyıq"*

sonralar bir çox elmi yeniliklərə imza atacaq uşaqlar da məhz bu sarayda yetişmişdi. Pioner və məktəblilər sarayının yaradılmasında məqsəd uşaqların asudə vaxtını səmərəli və məqsədəuyğun təşkil etmək, onların bilik, bacarıq və vərdişlərini inkişaf etdirmək, məktəbdənkənar tərbiyə işinin təşkilində uşaqlara praktiki və metodiki kömək göstərməkdən ibarət olub. Uzun illər bu istiqamətdə fəaliyyət göstərib. Amma zaman dəyişir. Biz artıq elm və təhsili yeni, müasir çağırışlara uyğunlaşdırmalıyıq. 20-ci əsri kosmos əsri adlandırırdılarsa, 21-ci əsr innovasiyalar, proqramlaşdırma, robot əsridir. Biz bu günün uşaqlarını, gəncləri buna hazırlamalıyıq. Qeyd edək ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 1 noyabr tarixli qərarına uyğun olaraq Təhsil Nazirliyi Respublika Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzi, Respublika Gənc Turistlər və Diyarşünaslıq Mərkəzi və Tofiq İsmayılov adına Bakı Şəhəri Uşaq-Gənclər Yaradıcılıq Sarayı birləşdirilərək onların bazasında Uşaq-Gənclər İnkişaf Mərkəzi yaradılıb, bu il isə ona publik hüquqi şəxs statusu verilib. Fəaliyyəti dövründə minlərlə istedadlı gəncin müxtəlif ixtisaslar üzrə formalaşmasında mühüm xidmətləri olan Mərkəz 2022-ci ildə əsaslı təmir edilib. İstifadəyə verildikdən sonra Mərkəzdə rəqs, musiqi alətləri, vokal, sağlam həyat tərzi, teatr, rəssamlıq, xarici dillər, intellektual inkişaf, elm və texnologiya, ekoklub, psixologiya, kulinariya və turizm istiqamətləri üzrə 44 dərnək təşkil olunub. Həmin dərnəklərdə 1500 nəfərədək şagirdin məşğul olması nəzərdə tutulub. Həmçinin binada 20 inzibati, 20 texniki və 65 pedaqoji işçi çalışacaq. Bu Mərkəzin binasının əsaslı təmiri və bərpası Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın gənc nəslin müasir dövrün inkişaf trendlərinə uyğun formalaşmasına göstərdikləri diqqət və qayğının daha bir nümunəsidir. Göründüyü kimi, bu, nəhəng bir mərkəzdir. Əsas vəzifə də Mərkəzin məqsədyönlü fəaliyyətinin təşkil edilməsidir. Elə etmək lazımdır ki, Mərkəzdə kimya, fizika, aerokosmonavtika üzrə gələcəyin alimləri, ixtiraçıları, ölkəmizin güclü müdafiəsini, sarsılmaz təhlükəsizliyini təmin edəcək layihələrə imza atan gənclər yetişsin.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# "Çox əcaib səhiyyə sistemimiz var"

## İqtisadçı-ekspert Samir Əliyev: "Mən niyə atamın ölməyini sübut etməliyəm?"



**"Atamın ölüm kağızını almaq üçün "Xırdalan poliklinikası" adlandırdığımız Xırdalan Ailə Sağlamlıq Mərkəzinə getmişdim. Qeydiyyat şöbəsindən ailə həkimi terapevt Sevinc Qaragözova yönləndirildər. Terapevt isə dedi ki, atanız bizdə qeydiyyata düşməyib, mənim pasiyentim olmayıb, onun xəstəliyi barədə məlumatsızam.**

Təbii ona insan öldükdən sonra onun xəstəliyini nə olmasının əhəmiyyətsiz olduğunu izah etməyə çalışdım. Və əlavə etdim ki, atam TƏBİB sistemində olan ixtisaslaşmış xəstəxanalarda - Kardiologiya, "Respublikanski" xəstəxanalarında müalicə olunub və orda qeydiyyatda olub. Hətta əlavə etdim ki, koronaya yoluxanda sizdə qeydiyyatda olub və sizdən pulsuz dərman da götürmüşük. Bütün dediklərimin faydası olmadı. Dedi ki, məhkəməyə (?!) müraciət etməlisiniz".

**"Şərq" xəbər verir ki, bu barədə iqtisadçı-ekspert Samir Əliyev özünün feysbuk hesabında yazıb. O qeyd edib:**

"Məhkəmə yaxınlığda olduğundan təcili ora baş çəkdim. Görüşdüyüm vəkil dedi ki, poliklinikadan imtina kağızı almalıyam, sonra onun əsasında "pasportstol"dan imtina kağızı almalıyam. Bütün bu işlər üçün 200 manata yaxın xərc çıxacaq.

İmtina kağızı üçün təkrarən terapevt xanıma müraciət edəndə bildirdi ki, Xırdalan xəstəxanasına müraciət edib ordan almalıyam imtina kağızını.

Evə gəlib TƏBİB-ə zəng vurdum. Onlar da terapevtin dediklərini təkrarlayaraq bunun yolunun məhkəmə olduğunu bildirdilər. Sözgəlişi məsələni araşdıracaqlarını bildirdilər. İndidən cavablarının nə olacağını bilmək çətin deyil.

Məhkəmədə olanda yaşlı bir qadın da eyni problemlə bağlı gəlmişdi. Onu da get-gələ salmışdılar. İndi mən bu dövlətə atamın rəhmətə getməsini sübut etmək üçün neyləməliyəm? Ölüm faktı var, təcili tibbi yardım maşını da fakti qeydə alıb. Atam TƏBİB sistemində qeydiyyatda olubsa və həmin qeydiyyatda onun müalicəsi ilə bağlı məlumatlar varsa, niyə məhkəməyə üz tutmalıyam? Niyə insanlar dövlət xəstəxanalarında olan savadsız həkimlərə sağlamlıqlarını etibar etməlidir?

Xırdalan poliklinikasına getmişəm nə işıq var, nə təmizlik. Əminəm ki, peşəkar həkim də yoxdur. Bu obyekti bağlamaq, həkimlərini isə səhiyyə sistemindən uzaqlaşdırmaq lazımdır. Ailə həkimi olan xanım nə vaxt ərazisindəki insanlarla maraqlandı ki, indi də deyir ki, mənim pasiyentim deyil.

Nəhayət sonuncu sual. Mən niyə atamın ölməyini sübut etməliyəm? Bu daha çox dövlətə lazımdır. Əgər mən ölməyini təsdiq edə bilmirəmsə, deməli, o hələ sağdır və hər ay pensiya almaq hüququ qalır. Çox əcaib səhiyyə sistemimiz var. İnsanların mütləq xəstələnməsinə məcbur edir".

**Aygün Tahir**

# "Azərsu" xəbərdarlıq etdi

## Şaxtalı günlərdə sayğacı don vuran abunəçilər yenisini öz hesablarına alacaqlar

**Hidrometeoroloji proqnozlara əsasən, yanvarın 8-dən başlayaraq qarşıdakı bir neçə gün ərzində ölkə ərazisində qeyri-sabit və şaxtalı hava şəraiti gözlənilir. Bu günlərdə içməli su xətlərinin və sayğacların donvurmadan mühafizəsinə ciddi diqqət yetirilməlidir.**

"Şərq" bu barədə "Azərsu" ASC-yə istinadla xəbər verir.

ASC istehlakçıların diqqətinə çatdırır ki, fərdi yaşayış evlərində və həyətyanı sahələrdə, eləcə də kommersiya obyektlərində quraşdırılmış sayğacların şaxtalı günlərdə donvurma nəticəsində sıradan çıxmasının qarşısını almaq üçün zəruri qabaqlayıcı tədbirlər görülməlidir. Şaxtanın daha çox olduğu gecə saatlarında sayğacın içərisində suyun qalmaması üçün sayğacın giriş ventili bağlanmalı, çıxış ventili açıq saxlanmalı, sayğac qutularının qapağı bağlı saxlanmalı, sayğac qutunun içərisində taxta yonqarı vasitəsilə mühafizə olunmalıdır. Eyni zamanda fərdi həyət evlərində üstüaçıq boruların izolyasiya edilməsi vacibdir.

Nazirlər Kabinetinin təsdiqlədiyi "Sudan istifadə" Qaydalarının 6.4-cü bəndinə əsasən, mənzillərdə, fərdi yaşayış evlərində və həyətyanı sahələrdə quraşdırılmış suölçən cihazların (sayğacların) işlək vəziyyətdə saxlanılmasına istehlakçı cavabdehlik daşıyır. Abonentlərin diqqətinə çatdırılır ki, fərdi yaşayış evlərində və həyətyanı sahələrdə, eləcə də qeyri-əhali istehlakçıları üçün quraşdırılmış sayğaclar istənilən kənar müdaxilə nəticəsində zədələnərək sıradan çıxarsa (sayğacların sındırılması, şaxtalı günlərdə donvurma nəticəsində sıradan çıxması və sair) onların yeniləri ilə əvəzlənməsi abunəçilərin hesabına həyata keçirilir.



Abonentlər şaxtalı hava şəraitində içməli su təchizatı və sayğacların istismarında qarşılaşdıqları problemlərlə bağlı ASC-nin 24 saat fəaliyyət göstərən "955" Qaynar xəttinə müraciət edə bilərlər.

İsrail Təhlükəsizlik Akademiyası Azərbaycan Nümayəndəliyi

# Azərbaycan haqlı tərəfdir

## Zəngəzur, Göyçə, İrəvan tarixi Azərbaycan torpaqlarıdır

**Ermənilər Qərbi Azərbaycanı özününküləşdirmək üçün buradakı Azərbaycan toplumuna qarşı ağır hərbi cinayətlər törədiblər. Məhz ermənilərin etnik təmizləmə siyasəti nəticəsində Qərbi azərbaycanlılar buradan deportasiya edilərək zorla çıxarılıb.**

Qərbi Azərbaycan ərazisi yeni Zəngəzur Göyçə və İrəvan qədim Azərbaycandır. Tarixi mənbələr göstərir ki məhz Çarizmin dövründə buraya ermənilər məqsədli və düşünülmüş şəkildə kütləvi halda köçürülərək Çar imperiyasına etnik dayaq yaradılıb. Bu siyasət rus çarı birinci Pyotrdan başlayıb və Sovet-bolşevik hökuməti dövründə də daha ciddi şəkildə davam edib və Sovet hökumətinin ermənipərəst siyasəti nəticəsində isə Qərbi Azərbaycan torpaqları qeyri-qanuni şəkildə tamamilə ermənilərə verilərək burada yeni Azərbaycan torpaqları üzərində Sovet hökuməti tərəfindən indiki Ermənistan dövləti yaradılıb. Amma heç bir tarixi mənbə burada qədim erməni varlığını və tarixdə hər hansısa bir erməni dövlətinin mövcudluğunu təsdiq etmir. Yəni bütün tarixi mənbələr Qərbi Azərbaycan torpaqlarının məhz Azərbaycana aid olmasını mötəbər dəlillərlə sübut edir. Ancaq ermənilərin şovinist və etnik təmizləmə siyasəti nəticəsində Qərbi Azərbaycandakı Azərbaycan izləri dağıdılıb və yerlə-yeksan edilib. 1988-ci ildən isə başlayaraq bu ərazilərdə yaşayan Qərbi azərbaycanlılar zorla və hərbi güc tətbiqi ilə öz dədə-baba torpaqlarından qovularaq ermənilərin etnik təmizləmə siyasətinin qurbanı olub. Qərbi Azərbaycan indiki Azərbaycan Respublikasının tarixi ərazisidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci ilin dekabrın 24-də Qərbi Azərbaycan İcması ilə keçirdiyi görüş və Qərbi Azərbaycan İcmasının inzibati binasının açılışını etməsi son dərəcə əlamətdar hadisədir. Qərbi Azərbaycanda yaşamış azərbaycanlılara vaxtilə böyük zülm edilib onlar ağır təqiblərə hücumlara məruz qalıblar. Ermənilər orada yaşamış azərbaycanlılara qarşı da genosid siyasəti yeridib.

Biz Azərbaycan Respublikası Prezidentinin Qərbi Azərbaycan məsələsində dair fikirlərinə öz siyasi dəstəyimizi ifadə edirik. Qərbi Azərbaycan məsələsində də Azərbaycan haqlı tərəfdir. Zəngəzur Göyçə İrəvan əraziləri hamısı tarixi Azərbaycan torpaqlarıdır.

Biz Azərbaycan dövlətinin atdığı hər bir addımı dəstəkləyir Qərbi azərbaycanlıların hüquqlarının müdafiəsində də Azərbaycan dövlətinin və xalqının yanında olduğumuzu bildirir ermənilərin şovinist və etnik təmizləmə siyasətini isə şiddətlə pisləyir vaxtilə 1988-89 və daha sonralar ermənilərin bütün azərbaycanlılara qarşı həyata keçirdiyi etnik təmizləmə və genosid siyasətini isə milli və irqi zəmində törədilən ağır hərbi cinayət və terror əməli hesab edirik.

**İsrail Təhlükəsizlik Akademiyasının Qafqaz üzrə Azərbaycan Respublikasındakı Regional Nümayəndəliyi**

# Ağac kəsənləri sərt cəzalar gözləyir

## Şəhər heç bir halda yaşıllıqların məhvi hesabına böyüməməlidir



**Ağacları qanunsuz kəsənlər cinayət məsuliyyətinə cəlb ediləcək. Bu barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Ekoloyi Təhlükəsizlik Xidmətinin rəisi Hikmət Əlizadə ilin yekunlarına həsr olunmuş mətbuat konfransında bildirib. Xidmət rəisi qeyd edib ki, ağacların qanunsuz kəsilməsi cinayət məsuliyyəti yaradır. ”Ağacların qanunsuz kəsintisi hələ də davam edir. Lazımi qədər tədbirlər görülsə də, bu faktlar bu gün də qalmaqdadır. Ötən il nazirlik olaraq bəzi qərarlarda dəyişiklik etdik.**

Kəsilən ağacın bərpası ilə bağlı cərimə 4 dəfə artırılıb. Artıq şirkət dəymiş ziyanı 4 dəfə artıq ödəyir. Ödənişlərin daha da artırılması ilə bağlı nazirlik aidiyyəti qurumlara müraciət edib. Qərara görə, vəzifəli şəxs tərəfindən 12-20 diametrli ağacın kəsilməsi cinayət məsuliyyəti yaradacaq. Hansısa şirkətin 12, diametrli ağacı kəsməsi də cinayət məsuliyyəti yaradacaq. Qərar qüvvəyə minəndən sonra bu qaydalar tətbiq ediləcək”, söyləyən H.Əlizadə bildirib ki, 2022-ci ildə qanun pozuntularına yol verildiyi üçün 10 min 124 akt, 2 min 112 protokol tərtib edilib. Onlardan 3 minə yaxını meşələrə dəymiş ziyanla bağlıdır. Burada söhbət vəzifəli şəxslərdən gedir. Ötən il 6 milyon 700 min manatlıq iddia qaldırılıb ki, ondan 4 milyon 662 min 127 manat dəymiş ziyanın ödənilməsi təmin edilib. Ötən illə müqayisədə bir sıra sferalarda, atmosfer çirklənməsində azalma müşahidə olunub. Ən çox qayda pozuntusu yaşıllığa dəymiş ziyanla bağlıdır. Xidmət rəisi Oğuz rayonu Tayıflı kəndinin ətrafındakı meşələrdə ağacların kütləvi şəkildə kəsilərək ağac emalı sexlərinə daşınması barədə bir sıra kütləvi informasiya vasitələrində dərc olunmuş məlumatlara aydınlıq gətirib. H.Əlizadə qeyd edib ki, yayılan informasiya ilə bağlı bayram günlərində Dövlət Ekoloyi Təhlükəsizlik Xidmətinin əməkdaşları tərəfindən araşdırma aparılıb. Araşdırma zamanı sözügedən məlumatda adları şikayətçi kimi çəkilən Oğuz rayonu Tayıflı kənd sakinləri Şirinov Tapdıq Zahid oğlu, Dursunov Mürvət Seyid oğlu və Xəlilov İlham Nəcməddin oğlu Oğuz Rayon İcra Hakimiyyəti başçısının Tayıflı icra nümayəndəliyində yazılı izahat verərək müraciətdə adlarının qeyd olunmasına baxmayaraq, həmin müraciətin yazılmasından xəbərsiz olduqlarını bildiriblər. ”Lakin buna baxmayaraq, Oğuz rayonu Tayıflı kənd ətrafında yerləşən meşə dolaylarına yerində baxış keçirilərkən ağacların kütləvi şəkildə kəsilməsi və ağac emalı sexlərinə daşınması halları qeydə alınmayıb”.

***“Hazırkı Bakını ötən əsrin Bakısı ilə müqayisə edəndə yaşıllıqların artmaq əvəzinə azaldığı əyani görünür”***

**Bələdiyyələrin Fəaliyyətinin Təbliği İctimai Birliyinin sədri Vüqar Tofiqli ”Şərq”ə açıqlamasında qeyd etdi ki, ağacların qanunsuz kəsilməsinə görə cərimələr nə qədər artırılsa, yenə də azdır:**

- Bu, çox həssas mövzudur. Paytaxtda yaşıllıqların necə məhv edildiyi göz önündədir. Baxırsan, hansısa küçədə, səkidə 1-2 ağac var, ertəsi gün görürsən, ağac qalmayıb. Kəsilib, yeri hasarlanıb və tikinti gedir. Hər dəfə bu məsələ gündəmə gələndə qınayanlar o saat başlayırlar ki, şəhər böyüməlidir, tikinti aparılmalıdır, abadlıq olmalıdır. Olsun, kim etiraz edir. Amma hər işdə ölçü vahidi reallığı var və bu, gözlənilməlidir. Tikinti aparılmalıdır deyə, ağacların kəsilməsi, yaşıllıqların məhv edilməsinə heç cür haqq qazandırmaq olmaz. Yaşıllıqlar bizim nəfəsimizdi. Bizi təmiz hava ilə təmin edən təbii kondisionerlərdi. Hazırkı Bakını ötən əsrin Bakısı ilə müqayisə edəndə yaşıllıqların artmaq əvəzinə azaldığı əyani görünür. Şəhər heç bir halda yaşıllıqların məhvi hesabına böyüməməlidir. Şəhər yaşıllıqlarla bərabər böyüməli, genişlənməlidir. Problem həm də bundadır ki, çox zaman cavan ağacların kəsildiyinin şahidi oluruq, çürümüş, yıxılmaq üzrə olan çoxillik ağacların, hansı ki, kökdən çürümə prosesi gedib, hansısa səbəbdən, bu ağacların ”qorunduğunu” görürük. Rəsmi qurumlar vətəndaşların müraciətlərinə vaxtında cavab vermir. Bir çox ağaclar sakinlərin həyatına təhlükə yaradır, amma əlaqədar təşkilatların monitorinq aparmasına uzun müddət lazım gəlir. Məsələlər operativ həllini tapmalıdır. Hardasa ağaclar kəsilir, tikinti aparılır, bir başqa yerdə isə çürük ağac az qalır evlərin üzərinə yıxılsın, onu vaxtında gəlib kəsmirlər.

V.Tofiqli qeyd etdi ki, Bakı kimi küləkli şəhərdə çürümüş ağaclar real təhlükə mənbəyidir:

- Dəfələrlə müşahidə etmişik ki, küləkli havalarda ağaclar qırılıb yol kənarındakı avtomobillərin üzərinə düşüb, insanların həyatına təhlükə törədib. Bakı kimi küləkli şəhərdə şəhər təsərrüfatına cavabdeh qurumlar belə məsələlərə ciddi yanaşmalıdır. Operativ tədbirlərin görülməsi üçün qurumlar arasında koordinasiya olmalıdır.

**Məlahət Rzayeva**



# İctimai istirahət zonalarının sayı 20 dəfə artıb

## Son illər yeni salınan yaşayış ərazilərində yaşıllıq normalarına əməl edilir

**”Son illər aparılan tikinti layihələrinin böyük əksəriyyətində yaşıllıqların salınması ilə bağlı qanunvericiliyin tələblərinə riayət edilib”.**

Bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin rəisi Hikmət Əlizadə ilin yekunlarına həsr olunmuş mətbuat konfransında deyib. O bildirib ki, bunu 10-15 il öncə aparılmış tikintilərə şamil etmək olmaz: ”Keçmişdə müəyyən sahələrdə boşluqlar olan kimi binalar tikiblər. Nəinki yaşıllıq salınması, bəzən hətta iki bina arasındakı məsafə tələbinə belə riayət olunmayıb. Lakin indi onlarla bağlı hansısa tədbir görmək mümkün deyil. Ən azından bu gün və bundan sonra buna əməl edilməsi vacib məsələdir. Çalışırıq ki, bunu təmin edək”.

**Ekoloq Fikrət Cəfərovun fikrincə, tikinti şirkətlərindən yaşıllıqla bağlı tələblər binanın inşasına razılıq alınarkən qoyulmalıdır. Əgər bina inşa edən şirkət ərazidə yaşıllıq üçün yer qalmırsa, əlavə sahə almalıdır:** ”Mən dəfələrlə iclaslarda da şahidi olmuşam ki, Dövlət Ekoloji Ekspertiza Agentliyi tikinti şirkətinə yaşıllıq nəzərdə tutulmadığı halda layihəni dəyişdirməyə məcbur edib. İkinci dəfə layihəyə baxanda görürük ki, xeyli ərazini yaşıllıq üçün ayırıblar. Bu, 30-40 faizə çatmasa da, tikinti şirkəti layihəni dəyişdirməyə məcbur edəndə ən azı 25 faiz yaşıllıq üçün yer saxlayır”. Ekoloqa görə, ümumi götürdükdə son 10-15 ildə Bakıda yaşıllıq ərazilərinin, ictimai istirahət zonalarının sayı 20 dəfə artıb. O deyib ki, yeni salınan yaşayış ərazilərində yaşıllıq normalarına əməl edilir. Həmsöhbətimiz bildirir ki, buna misal kimi ”Ağ Şəhər” layihəsini qeyd etmək olar. O deyir ki, bu layihədə hər üç-dörd binanın arasında park salınır: ”Bakıda bundan sonra salınacaq yaşayış komplekslərində də bu cür normalara əməl edilməlidir ki, paytaxtda əhali sayının artması fonunda ekoloji böhran yaranmasın”.

**Şəymən**

# İran uşaqların dili ilə Azərbaycan və İsraili təhdid etdi

**İran Xudafərin körpüsündə çəkdirdiyi video ilə yenidən Azərbaycan və İsraili təhdid edib.**

Sözügedən görüntülər sosial şəbəkələrdə müzakirə predmetinə çevrilib.

”Şərq” bildirir ki, videoda molla rejimi özü cəsarət edə bilmədiyi üçün uşaqların dili ilə Azərbaycan və İsraili təhdid edir.

*Qeyd edək ki, klip Azərbaycan dilində çəkilib.*

**Nihat**

# Pilotun ölüm müəmması

## “Rusiya izi axtaranların əsasları var”

**Xəbər verdiyimiz kimi, 2019-cu ilin iyul ayının 24-ü saat 22.00 radələrində plana uyğun olaraq gecə vaxtı təlim-məşq uçuşları keçirən Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus MiQ-29 təyyarəsi ilə qəflətən rabitə əlaqəsi kəsilib və aviasiya vasitəsi radarlardan itib. Təyyarə Xəzər dənizinə düşüb.**

Qəza nəticəsində təyyarənin pilotu, polkovnik-leytenant Rəşad Atakişiyev itkin düşüb.

Təyyarənin axtarış ərazisinin təxmini sahəsi 600 kvadrat kilometr, dərinliyi 40 metrə qədər olub. Təyyarə və pilotun axtarışları üçün Türkiyə və Rusiyadan mütəxəssis və avadanlıqlar cəlb olunub. Azərbaycan Müdafiə Nazirliyinin avqustun 19-da verdiyi məlumata görə, təyyarənin qara qutusu aşkarlanıb. 20 avqust tarixində isə pilotun nəşi tapılıb. 21 avqust tarixində Rəşad Atakişiyevin nəşi II Fəxri xiyabanda dəfn edilib. 7 may 2021-ci ildə hərbi pilot polkovnik-leytenant Rəşad Atakişiyevə şəhid statusu verilib.

O, ailəli olub və vətənə yadigar iki övladı qalıb.

Qeyd edək ki, Rəşad Saləddin oğlu Atakişiyev 7 yanvar 1985 Şəmkir rayonunun Qılıncbəyli kəndində anadan olub.

O, ilk təhsilini Şəmkir rayonunun Şöhrət Hüseynov adına Qılıncbəyli kənd tam orta məktəbində, daha sonra Samux rayonunun Alabaşlı kənd orta məktəbində alıb. Orta məktəbi yüksək qiymətlərlə bitirən Rəşad, ali təhsil almaq arzusu ilə 2002-ci ildə Azərbaycan Ali Hərbi Təyyarəçilik məktəbinə üz tutub. O, 2006-cı ildə Azərbaycan ”Ali Hərbi Təyyarəçilik Məktəbini Uçuş Mühəndisi” ixtisasına yiyələnərək təhsil ocağını yüksək nəticələrlə başa vurub. İkinci kursda oxuyan zaman ilk dəfə ixtisaslaşma tətbiq olunub və aviasiyaya sənəd vermiş 200 nəfər arasında Rəşad da olub. Seçilmiş 35 nəfərlə birgə təhsil alan Atakişiyev diplom alan beş nəfərdən biri olmağı bacarıb.



***Qabil Hüseynli: "Mən özüm müəyyən qədər araşdırdım, amma bir nəticəyə gələ bilmədim"***

R.Atakişiyev 2001-ci ildən pilot kimi fəaliyyətə başlayıb. Əldə etdiyi bilik və bacarıqları sayəsində polkovnik-leytenant rütbəsinə qədər yüksəlib. Qısa zaman ərzində təcrübəli pilotlar sırasına və hərbi hissə komandirinin müavini vəzifəsinə yüksələn Rəşad Atakişiyev 2018-ci ilin oktyabrında ”Şahinlər” filmində iştirak edərək, havada ən çətin, təhlükəli manevrlərin öhdəsindən gəlib.

Həmçinin Azərbaycan Ordusunun 100 illiyi ilə bağlı keçirilən paradda səmada bacarıqlarını göstərib. Ayrıca Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin ”Turaz Qartalı” devizi altında keçirilən birgə taktiki-uçuş təlimlərində iştirak edib.

**”Şərq” olaraq Rəşad Atakişiyevin ölümü ilə bağlı müəmmanın ortaya çıxması üçün mərhumun qayınatası, sabiq dövlət müşaviri Qabil Hüseynli ilə əlaqə saxladıq.**

Hadisə ilə bağlı danışmağın onun üçün çətin olduğunu deyən Q.Hüseynli bildirib ki, qəzada rus izi axtaranların əsasları var:

”Təəssüf ki, məsələ tam araşdırılmır. Kim araşdırasıdır ki? Mən özüm müəyyən qədər araşdırdım, amma bir nəticəyə gələ bilmədim”.

**Nihat Müzəffər**

# 220 manatlıq aliment məbləği çox yüksəkdir



## “Unutmamalıyıq ki, boşanan şəxslərin əksəriyyəti maddi çətinlik yaşayan insanlardır”

**Yanvarın 1-dən Azərbaycanda alimentin minimum miqdarı 193 manatdan 220 manata qaldırılıb.**

**Ailə Məcəlləsinə əsasən, aliment ödənilməsi barədə razılıq olmadıqda uşaqlar üçün onların valideynlərindən məhkəmə tərəfindən bir uşağa görə qazancın, yaxud da gəlirlərin 1/4 hissəsi, 2 uşağa görə qazancın və ya gəlirlərin 1/3 hissəsi, 3 və daha çox uşağa görə isə qazancın və yaxud gəlirlərin yarısı aliment olaraq hesablanır.**

Alimentin miqdarı məhkəmə tərəfindən müəyyən nüanslar nəzərə alınmaqla azaldıla və ya artırıla bilər.

Aliment öhdəliyi olan şəxs işləmirsə və ya heç bir gəliri yoxdursa, bu zaman məhkəmə həmin şəxsə alimentin ödənilməsini sabit pul məbləğində təyin edir. Alimentin sabit pul məbləği uşaqlar üçün yaşayış minimumuna uyğun olaraq hesablanır. Yəni bu ildən alimentin minimum miqdarı 220 manat təşkil edir.

Bu artım cəmiyyətdə ziddiyyətli fikir yaradıb. Bir qrup şəxs hesab edir ki, alimentin artması qadınlara boşanma üçün səbəb verir. Qadınlar bir balaca dava düşən kimi boşanıb sərbəst yaşamaq istəyirlər. Məhz buna görə ailələrin dağılmaması üçün alimentin artırılmaması təklif edilir.

Digərləri isə hesab edir ki, əksinə, boşanmaların azalmasına təsir edəcək. Artıq kişilər aliment verməmək üçün ailəsinə sadiq qalacaq. Boşanmaya səbəb olacaq səhvlərdən çəkinəcək.

*Maraqlıdır, alimentin miqdarı boşanma faizindəki artım və azalmaya təsir edir?*

**Hüquqşünas, Mediasiya Şurasının üzvü Fərhad Mehdiyev isə ”Şərq”ə açıqlamasında deyib ki, ölkədəki minimum əməkhaqqı nəzərə alınarsa 220 manatlıq aliment məbləği çox yüksəkdir:** ”Unutmamalıyıq ki, boşanan şəxslərin əksəri maddi çətinlik yaşayan insanlardır. Belə halda deyək ki, ortalama iki uşaq kimi götürüləndə, aliment məbləğini ödəmək çətinlik yaradır. Hazırda da icra şöbələrində əsas icra edilməyən öhdəliklər arasında aliment öhdəliyi var”.

Aliment məbləği az olduğu halda tək anaların uşaqlarına necə baxacağına gəldikdə isə F.Mehdiyev deyib ki, uşağı həmişə anada saxlayırlar: ”Ölkəmizdə valideynlərin boşanmasından sonra uşaqlar ananın yanında qalırlar.

Südəmər uşaqların anasında qalması normaldır, amma 5 yaşdan yuxarı uşaqları baxsın deyə ataya da vermək olar. Xaricdə valideynlərə bərabər şəkildə paylaşılır”.

**Millət vəkili Kamilə Əliyeva isə hesab edir ki, alimentin miqdarının artması ildən-ilə artan inflyasiya və minimum yaşayış miqdarının artması ilə əlaqədardır.** Bu baxımdan alimentin də artırılmasına ehtiyac duyulur. Çünki hər bir uşağın hüququdur ki, normal böyüsün. İstər sağlamlıq cəhətdən, istər qidalanma, istərsə də digər tələbatları ödənməlidir. Bu, zəruridir. Bununla əlaqədar da valideynlər əgər aliment ödəyirsə, bu ancaq uşağın tələbatlarına xərclənir”.

Bu halın boşanmaların sayının artmasına gətirib çıxaracağına dair fikirlərə gəlincə, deputat bunları deyib: ”Güman etmirəm ki, hər hansı normal ailədə alimentin verilən miqdarı çox olsa, digər ailələrin dağılması üçün zəmin yaratsın. Heç bir tərəf istəməz ki, onların ailəsi dağılsın. Hesab edirəm ki, qarşılıqlı hörmət, güzəştə getmək, dözümlülük göstərmək kimi qaydalara riayət etməklə, ailələrin dağılmasının, boşanmaların qarşısını almaq mümkün olar”.

**Şəymən**

### Elan

Mustafayev Bayram Musa oğluna məxsus hərbi vəsiqə, şəxsiyyət vəsiqəsi, sürücülük vəsiqəsi, bank kartları itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330
Tirajı: 1550 Sifariş: 1820




# Mask tualet kağızını da kəsdi

## Tviter əməkdaşları üsyana qalxdı

**Milyarder İlon Mask sosial media nəhəngi tviteri aldıqdan sonra pula qənaət etmək üçün sağlamlıq faydalarını azaldıb və pulsuz ofis yeməklərini yığışdırıb.**

Lakin tviter əməkdaşlarının sözlərinə görə, Maskın dəyişiklikləri bununla məhdudlaşmayıb. Nyu-York ofisinin işçiləri Maskın təmizlik işçilərinin müqavilələrini yeniləmədiklərindən və tualet kağızı tapa bilmədiklərindən şikayətləniblər.

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, son üç gündə tviterin Nyu-Yorkun Çelsi məhəlləsindəki ofisinin işçiləri milyarderin ofisdaxili təchizat və təmizlik işləri ilə məşğul olan obyektlərin təmiri işçilərinin müqavilələrini yeniləməmək qərarından əziyyət çəkiblər. "Business Insider" hadisə şahidlərinə əsaslanaraq xəbər verir ki, təmizlənməmiş tualetlərdən gələn pis qoxular dəhlizlərə və iş yerlərinə sızır. Məlumata görə, adının açıqlanmasını istəməyən tviter əməkdaşları da ofisin heç bir yerində tualet kağızının olmadığını bildiriblər. İşçilər həmçinin bildiriblər ki, gigiyenik vəziyyətin pisləşməsi ilə bağlı səlahiyyətlilərə məlumat verilib. Mask işçilərə xidmət göstərən müxtəlif sağlamlıq faydalarını kəsib, pulsuz yemək və ofis qəlyanaltılarını məhdudlaşdırıb. tviterin San-Fransiskodakı baş qərargahındakı bəzi ofisləri hotel xərclərini azaltmaq üçün yataq və hamam yerlərinə çevirib. Maskın da aylardır burada olduğu bildirilir. "Business Insider" həmçinin bildirir ki, Mask puluna qənaət etmək üçün keçən həftə tviterin ABŞ-dakı üç əsas məlumat serverindən birini qəfil bağlayıb. Nyu-York ofisində bir işçi, tualet kağızı kimi vacib ofis ehtiyaclarının olmamasının "çox pis" olduğunu və şirkətin onsuz da aşağı olan mənəviyyatına daha çox təsir etdiyini söyləyib. Başqa bir işçi əlavə edib ki, şirkət tualet kağızı verməsə, işçilər tualet kağızlarını evdən gətirməli olacaqlar.

**Turan**

# Çıldır gölü dondu

## Bölgə indi yerli və xarici turistlərini gözləyir



**Ərdahan və Qars arasında yerləşən Çıldır gölünün səthi son günlər dondurucu temperatur səbəbindən böyük ölçüdə donub.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, Çıldır qəsəbəsinin Atalay məntəqəsində gölün sahilindəki buzun qalınlığı 10 santimetrə çatıb. Gölün buzlu səthinə gələn turistlər gəzintiyə çıxıb, xatirə şəkli çəkdiriblər.

Çıldır bələdiyyə başçısı Kamal Yakup Əzizoğlu Anadolu Agentliyinə bildirib ki, bu il havalar gec soyuduğundan göldə donma gecikib.

Son günlər soyuq hava ilə əlaqədar buz qalınlığının 10 santimetrə çatdığını bildirən Əzizoğlu, "İndi yerli və xarici turistlərimizi gözləyirik. Artıq bizə gələn zənglərə rahatlıqla cavab verə bilirik. Çünki gölümüz donub, biz onun üstünə rahatlıqla çıxa bilirik. Ziyarətçilərin ən çox arzuladığı buzun üzərinə çıxmaq idi. İnsanların səbri tükənirdi", - deyə bildirib.

**Turan**

# 115 yaşında vəfat edib

## Hendrix dünyanın ən yaşlı dördüncü insanı idi



**Amerika Birləşmiş Ştatlarının ən yaşlı qadın sakini Bessi Hendrix 115 yaşında vəfat edib.**

**Bu barədə "New York Post" qəzeti məlumat yayıb.**

**Məlumata görə, qadın çərşənbə axşamı dünyasını dəyişib. Herontoloqlardan ibarət tədqiqat qrupunun fikrincə, Hendrix dünyanın ən yaşlı dördüncü insanı idi. O, 1907-ci il noyabrın 7-də Ayovada anadan olub.**

# Səudiyyəli qadınlar ilk dəfə...

## Həcc ziyarətinə kişilərsiz gedə biləcəklər



**Səudiyyə Ərəbistanında ilk dəfə olaraq qadınlar Həcc ziyarətinə məhrəm sayılan kişinin müşayiəti olmadan gedə biləcəklər.**

**Oxu.az xəbər verir ki, bu barədə Səudiyyə Ərəbistanının Həcc və Ümrə Nazirliyinin bəyanatında deyilir.**

**Bildirilir ki, qadınların Həcc və Ümrə ziyarəti üçün təqdim etdikləri elektron formaya müşayiət edən şəxs (ər, qardaş, ata və ya oğul) əlavə edilir. Bununla belə, o da qeyd olunur ki, bu şəxslərin əlavə edilməsi sərbəst xarakteri daşıyır və anketi dolduran qadının öz ixtiyarındadır. Eyni zamanda vurğulanır ki, müşayiətsiz halda müsəlman qadın həcc ziyarətinə qadın qrupunun tərkibində getməlidir.**

# Tarkan Bakıda toyda 1 milyon qazanacaq



**Türkiyənin meqastarı Tarkanın Bakıdakı toydan alacağı qonorarın miqdarı məlum olub.**

**OLAY-ın əldə etdiyi məlumata görə, məşhur müğənni paytaxt restoranlarının birində baş tutacaq məclis üçün 1 milyon manat alacaq.**

**Toyun martın əvvəlində baş tutacağı iddia edilir.**



# Canavar həyatı yaşamaq istədi

## Gənc 50 gün içində arzusuna çatdı





**Yaponiyalı gənc ən böyük xəyalına qovuşub. İllər öncə bir köpək kostyumu geyinərək itlərin həyat tərzini əks etdirən başqa bir gənc - Toco-Sanı təqlid edən adam canavara dönmək istədiyini elan edib. Canavar həyatı yaşamaq istəyən, arzusuna çatmaq üçün onu gözləyən bütün çətinliklərlə razılaşan gənc, nəhayət, 50 günün tamamında canavar həyatı sürməyə başlayıb.**

"Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, heyvanların, xüsusən də canavarların həyat tərzi bu gənci daim düşündürüb. Xəyalında canavar həyatını canlandıran gənc bu həyatı gerçəkdən yaşamaq üçün müxtəlif yollara baş vurub. Əvvəlcə vaxtilə Toco-Sana köpək kostyumu hazırlamış həmin geyim firmasıyla əlaqə yaradıb. Bu firma illər əvvəl Toco-sana köpək kostyumu tikmişdi. Kostyumu geyinən gəncin xarici görkəmi bir köpəkdən seçilmirdi. Gənc köpəklər kimi yürüyür, yuvarlanır, atlanıb-düşürdü. Kostyumun tikilməsinə 40 gün sərf edilmişdi. Bu kostyumu Toco-San 2 milyon yapon yeni miqdarında, yəni 286 min 379 türk lirəsinə alıb. Kostyumu geyinən gənc sürdüyü "it həyatı"nı videoya çəkib yutub kanalında açdığı 'I Want To Be An Animal' ("Heyvan olmaq istəyirəm") adı altında paylaşımlar edir. Məşhur kostyum şirkəti "Zennet" isə daha bir gəncin xəyalına qovuşmasına yardımçı olub. Bu, məhz canavar həyatı yaşamaq istəyən gəncdir. Toco-Sandan sonra bu gənc də geyim firmasına müraciət edib və canavar kostyumu sifariş edib. Gəncin bədən ölçüləri dəqiqliklə alınıb, vəhşi təbiət qoynunda yaşayan canavarlar uzun müddət izlənib. Kostyumun hazırlanması 50 gün çəkib. Bu dəfə gənc 3 milyon yapon yeni xərcləyib. Gənc canavar kostyumunu əyninə geyindiyi anı belə xatırlayıb: "Uşaqlıqdan bəri heyvanları çox sevirəm və bu sevgi məndə onlardan biri olmaq arzusu oyatdı. Televizorda bir çox insanın əyləncə məqsədilə müxtəlif heyvan kostyumları geyindiyini görürdüm. Düşündüm ki, niyə də mən canavar kostyumu geyinməyim?! Kostyumu əynimə geyinib güzgü qarşısında dayandığımda canavar görkəmimə heyran qaldım. Canavara dönmüş halım çox cazibəli idi. Arxa ayaqları üzərində yeriyən gerçək bir canavara dönməyim çox çətin oldu, amma mən bunu bacardım. Artıq həqiqi canavara bənzəyirəm". Geyim firması isə müştərisinin adını gizli saxlayır. Bununla belə firma müştərisinin tualet ehtiyacı yarandıqda geyimini çıxarmadan ehtiyacını ödəyə bilməsi və havalandırma üçün də bütün detalları nəzərə aldıqlarını bildirib.

**Məlahət**



# Ukrayna qadınlarının yaşadıqları dəhşət

## Təcavüz, nə yazıq ki, müasir müharibələrin ən iyrənc silahına çevrilib



**"Mənə təcavüz edən rus əsgəri oğlumla yaşıd idi" Bu sözlər 1 ilə yaxındır Qara dəniz sahilində Ukrayna ilə Rusiya arasındakı müharibənin iyrənc üzünü ortaya qoyan sübutlardan yalnız biridir. "Şərq" "Milliyet.con"a istinadən Ukrayna qadınlarının yaşadıqları dəhşəti anladır.**

Təcavüzə məruz qalmış qadınların acı həyat hekayəsini oxuculara təqdim edən sayt yazır ki, təcavüz, nə yazıq ki, müasir müharibələrin ən iyrənc silahına çevrilib. Bu gerçəyin səbəblərini izah etməyə çalışan professor Nərgiz Özkural Köroğlu qeyd edib ki, müharibənin ən kəskin silahı olaraq istifadə edilən təcavüz, cinsi istismar buna məruz qalan qadınların hətta son nəfəslərində belə etiraf edə bilməyəcəkləri gerçəkliklərdir. Müharibə insanları təkcə ev-eşiyindən didərgin salmır, köçkün həyatına məhkum etmir, həm də qadınlara həyatları boyunca unutmayacaqları dəhşətlər yaşadır. Ukraynalı Viktoriya Martsinyuk İngiltərənin "Telegraph" kanalına başına gətirilən dəhşətləri anladıb. Qadının "mənə təcavüz edən rus əsgəri oğlumla yaşıd idi" sözləri müharibənin dəhşətlərini bütün gerçəkliyi ilə ortaya qoyur. Bu cür dəhşətlər təkcə Ukraynada yaşanmayıb. Harada müharibə olubsa, varsa, orada yaşanıb və yaşanmaqdadır. Ruanda, Bosniya-Hersoqovinada da həmçinin. Müharibələr zamanı milyonlarla qadın düşmən tərəfin əsgərlərinin təcavüzünə məruz qalır. Həm də bu hadisələr onların ailələrinin, övladlarının gözü qarşısında baş verir. Bu isə həmin qadınların psixoloji travma almasıyla nəticələnir, gələcək həyatını dözülməz edir. Nəzərə alanda ki, başına açılan müsibətləri danışmayan, susmağa üstünlük verən qadınlar daha çoxdur, təcavüzə məruz qalanların daha çox olduğuna şübhə yoxdur.

**Məlahət**

# Milyardlarla insan təhlükə altındadır

## 2100-cü ilə qədər Yerdəki buzlaqların 70 faizi yox ola bilər



**Yeni araşdırmaya görə 2100-cü ilə qədər Yerdəki buzlaqların 70 faiz azala bilər. ABŞ-nin Karnegi Mellon Universitetinin iqlimşünasları planetin qarşılaşa biləcəyi buz itkisini hesablayıblar.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, ABŞ alimləri yeni peyk görüntülərindən istifadə edərək müxtəlif qlobal istiləşmə ssenarilərini və onların mümkün təsirlərini aşkar ediblər. Tədqiqata rəhbərlik edən ABŞ-nin Karnegi Mellon Universitetindən buzlaq üzrə alim David Rouns bildirib ki, son illərdə buzlaqlardakı dəyişikliyi araşdırmaq üçün daha çox peyk görüntülərindən istifadə olunub və hər bir buzlaqın gələcəyi ayrıca qiymətləndirilir. Rounsa görə, qlobal temperatur artımı davam edərsə, 2100-cü ilə qədər quru buz kütləsinin 32 faizi və buzlaqların 68 faizi yox olacaq.

*Qeyd olunub ki, buzlaqların əriməsi dəniz səviyyəsinin artımını 115 millimetrə qədər artıra bilər, qlasioloq Rouns bildirib. Araşdırma "Science" jurnalında dərc olunub.*

**Turan**

# Azərbaycanda 70 min manata gəmi satılıb



**Azərbaycanda 70 min manata gəmi satılıb.**

Trend-in məlumatına görə, gəmi "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-yə məxsus olub.

İstehsal tarixi 1985-ci il olan "Şəfəq" gəmisi Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən keçirilən hərracda 70.000 manata özəlləşdirilib.

Gəminin uzun müddət istismarsız olması, sərt dəniz mühitinin təsiri, xidmət edən mexanizmlərin aşınmaya məruz qalması, hazırkı texniki vəziyyətinin Beynəlxalq Dəniz Təşkilatının (İMO) tələblərinə uyğun gəlməməsi və göstərilən qüsurların bərpasına və gəminin əsaslı təmirinə həddən artıq maliyyə vəsaiti tələb olunur.

# Araq içənlərdə 5 cür xərçəng yarana bilər



**Alkoqollu içkilər 10-15 il ərzində mütəmadi içildikdə 5 növ xərçəng riskini artırır. Bu daha çox kişilərdə rast gəlinir.**

Bakupost.az xəbər verir ki, onkoloq Andrey Vorobyev alkoqolun DNT-ni dəyişdiyini bildirib.

Alkoqol içildikdən sonra orqanizmdə zərərli maddələrə parçalanır, xərçəng ehtimalını dəfələrlə artırır.

Xüsusən bu içkilərdə olan asetaldegid hüceyrələrdə toplanaraq, daxildən dağıdıcı təsir edir. Zədələnmiş hüceyrələr isə artıq bədxassəlidir.

Spirtli içkilərdən daha çox ağız, boğaz, mədə-bağırsaq, mədəaltı vəz, qaraciyər, süd vəzi xərçəngi yaranır.

10 ildən artıq həftə ərzində 200 ml-dən artıq spirtli içki içənlərdə bu risk var.